## Azərbaycandan İrana daha bir jest

Küləyin təsirindən Azərbaycan tərəfə düşən bayraq qarşı tərəfə təhvil verilib



**Fevral ayının 1-də Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının ”Lənkəran” sərhəd dəstəsinin xidməti sahəsində İran İslam Respublikasının (İİR) dövlət bayrağının güclü küləyin təsirindən Azərbaycan Respublikasının ərazisinə düşməsi sərhəd naryadı tərəfindən aşkarlanıb.**

“Şərq” bu barədə DSX-yə istinadən xəbər verir. İİR dövlət bayrağı ərazidən götürülərək sərhəd bölməsinə gətirilib, Azərbaycan Respublikasının və İran İslam Respublikasının sərhəd mühafizə qurumları arasında qarşılıqlı əlaqələrin yüksək səviyyədə olması ilə əlaqədar müqabil tərəf sərhəd nümayəndəliyi xətti ilə dərhal məlumatlandırılıb.

Fevral ayının 2-də dövlət bayrağı qarşılıqlı hörmət şəraitində zəruri qaydalara riayət olunmaqla İran sərhədçilərinə təhvil verilib.

### Macarıstanın XİN rəhbəri Azərbaycana səfərə gəlib

**Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyarto Azərbaycana səfərə gəlib.**

Bu barədə macarıstanlı nazir özünün "Facebook" səhifəsində yazıb.

Onun sözlərinə görə, bu gün o, Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla nahar edəcək.

"Sabah birgə iqtisadi komitə, biznes forum və enerji məsələləri ilə bağlı danışıqlar baş tutacaq", - deyə nazir bildirib.


№ 20 (5542), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 3 fevral 2022-ci il (cümə axşamı)




## Aylı-ulduzlu zaman...

Şuşa Bəyannaməsi tarixə öz damğasını vurdu

**Milli Məclis tarixi Şuşa Bəyannaməsini təsdiqlədi və ortaq sənədlə bağlı daha bir hüquqi prosedur reallaşdı. Bu gün də Türkiyə Böyük Millət Məclisinin sənədi müzakirə edəcəyi gözlənilir. Dünyada gərginliyin günü-gündən artdığı bir vaxtda Şuşa Bəyannaməsinin qlobal, regional və ikitərəfli əhəmiyyətinin böyüklüyü bir daha təsdiqlənir.**

Dövlətlər hazırda terrordan, ərazi bütövlüyünün təhdid edilməsindən, separatçılıqdan əziyyət çəkir. Bu kimi hallar səbəbindən regional və beynəlxalq təhlükəsizlik də təhdid olunur. Təhlükəsizliyin təmin olunması, terrorçuluğa qarşı mübarizə, ərazi bütövlüyünün qorunması da bəyannamənin əsas istiqamətlərindəndir. Son illər Azərbaycanla Türkiyə təhlükəsizlik və ərazi bütövlüyünün təmin olunması məsələsində bir-birinə yardım və dəstəyi daha da artırıb. Hərbi sahədə əməkdaşlıq Şuşa Bəyannaməsinin müddəalarının reallaşması istiqamətində addımlar atıldığına əyani sübutdur. NATO-nun üzvü olan Türkiyə dünyanın aparıcı ordusuna malikdir.

(səh.4)



## "Müharibədə iştirak etmiş gənclər yeni nəsil üçün də nümunə olmalıdır"

Prezident İlham Əliyev Gənclər Gününün 25 illiyinə həsr olunmuş Forumda çıxış edib

**”Elə bir gənc nəsil yetişdi ki, Vətən uğrunda, milli ləyaqət uğrunda ölümə gedirdilər”.**

Bu sözləri Prezident İlham Əliyev Gənclər Gününün 25 illiyinə həsr olunmuş Forumda deyib. Dövlət başçısı vurğulayıb ki, Azərbaycanda 29 yaşına qədər insanlar gənclər sayılır...

(səh.2)

## Tovuz Azərbaycanın Gənclər Paytaxtı elan edilib



**Azərbaycanın yeni gənclər paytaxtı elan edilib.**

Dünən Bakıda Azərbaycan Gəncləri Gününün 25 illiyinə həsr olunmuş Gənclər Forumunda Azərbaycanın Gənclər Paytaxtı seçilib.

Püşkatma ölkənin 5 şəhəri arasında keçirilib və nəticədə 2022-ci il üçün Tovuz Azərbaycanın Gənclər Paytaxtı elan edilib.

*Qeyd edək ki, 2012-ci ildən hər il paytaxt Bakı istisna olmaqla, Azərbaycanın şəhər və rayonlarından biri Gənclər Paytaxtı elan olunur.*

# İllər sonra bir ilk

Ermənistandan havalanan göyərtəsində 64 sərnişin olan təyyarə İstanbula enib









**Emənistanla Türkiyə arasında birbaşa uçuşlar bərpa olunub. Ermənistanın “Flyone Armenia” aviadaşıyıcısı İrəvan-İstanbul-İrəvan marşrutu üzrə ilk uçuşu gerçəkləşdirib..**

Yerli vaxtla saat 18:00-da göyərtəsində 64 sərnişin olan "Flyone Armenia" aviaşirkətinin təyyarəsi İrəvandakı Zvartnots hava limanından İstanbula yola düşüb. Təyyarə Türkiyə vaxtı ilə saat 19:50-də İstanbula enib. Sərnişinləri gül-çiçəklə qarşılayıblar. Həftədə üç dəfə baş tutacaq reyslərə biletlərin qiymətləri açıqlanıb.

Belə ki, "Pegasus" aviaşirkətinin reysləri üzrə Yerevan hava limanından İstanbulun Sabiha Gökçen hava limanına bilet qiymətləri 69,99 avrodan, Sabiha Gökçen hava limanından Yerevana biletlər 59,99 avrodan başlayacaq.

"FlyOne Armenia"nın reyslərinə bilet qiymətləri 39 avrodan başlayacaq.

(səh.2)



## Putin və Conson arasında telefon danışığı olub

**Böyük Britaniyanın Baş naziri Boris Conson və Rusiya Prezidenti Vladimir Putin arasında telefon danışığı olub. ”Report” xəbər verir ki, bu barədə rəsmi Kreml məlumat yayıb.**

Bildirilib ki, tərəflər Ukraynadakı vəziyyəti, habelə təhlükəsizlik zəmanəti məsələlərini müzakirə ediblər. Rəsmi Londonun məlumatında isə qeyd olunub ki, B.Conson V.Putinlə söhbətində diplomatiyanın vacibliyini və Ukraynanın danışıqlara cəlb edilməsinin labüdlüyünü vurğulayıb. Britaniyanın baş naziri Rusiyanın Ukrayna ilə sərhəddəki fəaliyyətindən də "dərin narahatlığını" ifadə edib. Tərəflər Ukrayna ilə sərhəddə vəziyyətin pisləşməsinin heç kimin marağında olmadığı barədə razılaşıblar.

## Bakıda vahid şəbəkə yaradılmalıdır

Velosiped yolları bütün şəhəri əhatə etməlidir



**Azərbaycan qanunvericiliyinə ”velosiped zolağı” və ”velosiped yolu” anlayışları əlavə edilir.** Bu, "Yol hərəkəti haqqında" qanuna dəyişiklik layihəsində əksini tapıb. Layihə Milli Məclisdə müzakirəyə çıxarılıb. Millət vəkilləri velosiped yolunun çəkilməsini müsbət qarşılayıblar.

Hətta millət vəkili Razi Nurullayev "belə yol olsa, işə velosipedlə gedib-gələrəm" deyib. Qanuna dəyişiklikdə nələr nəzərdə tutulur? Belə bir qeyd var...

(səh.4)

## “İndi tam sağalmışam”

Koronavirusa yoluxan Xalq artisti evə buraxılıb



**Koronavirusa yoluxan Xalq artisti Valeh Kərimov müalicə aldığı xəstəxanadan evə buraxılıb.**

Bu barədə Xalq artisti özü məlumat verib.

Onun sözlərinə görə, hazırda Bakıda evindədir: "Dörd gün xəstəxanada qaldım, müalicə olundum. İndi tam sağalmışam. Özümü yaxşı hiss edirəm".

*Qeyd edək ki, V.Kərimov bir müddət əvvəl koronavirusa yoluxub. O, Ağdaş Rayon Mərkəzi Xəstəxanasında müalicə olunurdu.*

## Sutkalıq yoluxma 6 600-ü ötüb

24 nəfər vəfat edib, 3 385 nəfər müalicə olunaraq sağalıb




**Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 6 620 yeni yoluxma faktı qeydə alınıb, 3 385 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 24 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 670 313 nəferin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 630 727 nəfər müalicə olunaraq sağalıb, 8 779 nəfər vəfat edib. 30 807 nəfər aktiv xəstə sayını təşkil edib.



## London-Bakı-Ankara üçbucağı güclənəcək

Aqşin Kərimov: "Yaxın zamanlarda Britaniyanın təşəbbüsü ilə Ermənistanın hansısa güzəştə gedəcəyinə şahidlik edə bilərik"

(səh.5)

## Azərbaycan və Türkiyə bölgədə sülhün tərəfdarıdır

Hər iki ölkənin rəsmiləri tərəfindən səslənən açıqlamalar da bunu sübut edir

(səh.4)



# "Müharibədə iştirak etmiş gənclər yeni nəsil üçün də nümunə olmalıdır"

## Prezident İlham Əliyev Gənclər Gününün 25 illiyinə həsr olunmuş Forumda çıxış edib




**"Elə bir gənc nəsil yetişdi ki, Vətən uğrunda, milli ləyaqət uğrunda ölümə gedirdilər".**

Bu sözləri Prezident İlham Əliyev Gənclər Gününün 25 illiyinə həsr olunmuş Forumda deyib. Dövlət başçısı vurğulayıb ki, Azərbaycanda 29 yaşına qədər insanlar gənclər sayılır: "Əgər belə demək mümkündürsə, bu gün ən yaşlı gəncin mən Prezident vəzifəsinə birinci dəfə seçiləndə 11 yaşı var idi. Yəni bu, reallıqdır. Mən çalışmışam ki, fəaliyyətim dövründə gənclərin tərbiyə olunması ilə bağlı daha çox işlər görək. Çox şadam, fəxr edirəm ki, Vətən uğrunda, torpaq uğrunda qabağa gedənlərin əksəriyyəti gənclər idi. Bu, hər birimiz üçün qürur mənbəyidir. Çünki elə bir gənc nəsil yetişdi ki, hətta Qarabağı görməyən, o acı tarixi görməyən gənclər Qarabağ uğrunda, Vətən uğrunda, milli ləyaqət uğrunda ölümə gedirdilər və şəhid oldular, qazi oldular".

**"Elə ölkə yaratmışıq ki, hər bir vətəndaş bu ölkə ilə fəxr edə bilər"**

**Prezident bildirib ki, vətənpərvər olmaq üçün hər bir insanın ürəyində Vətənə bağlılıq olmalıdır, sədaqət olmalıdır:** "Ancaq eyni zamanda, hər bir insan, xüsusilə gənclər haqlı olaraq öz Vətəni ilə fəxr etməlidir. Müstəqilliyimizin 30 illiyini keçən il qeyd etmiş ölkə kimi bu gün biz deyə bilərik, elə ölkə yaratmışıq ki, hər bir vətəndaş bu ölkə ilə fəxr edə bilər. Çünki istənilən sahəyə baxdıqda görürük ki, doğrudan da böyük tarixi nailiyyətlərə imza atmışıq. Əlbəttə, problemlər də var, çatışmazlıqlar da var. Bu çatışmazlıqlarla mübarizə aparırıq və aparacağıq. Amma əgər ümumiyyətlə bu tarix kəsiyində bu dövrü təhlil etsək görərik ki, biz tarixi nailiyyətlərə imza atdıq".

**"Nəsillər arasındakı o mənəvi ipləri qırmamaq üçün..."**

**Ölkə başçısı qeyd edib ki, milli-mənəvi dəyərlər dövlətimizin əsasını təşkil edir:** "Dəfələrlə demişəm ki, müasir və müstəqil Azərbaycan dövləti milli dəyərlər üzərində qurulub. Gəncləri əyri yola gətirmək, yaxud da yoldan çıxarmaq daha asan olur. Ona görə də bax, bu qlobalistlərin - mən onları şərti olaraq belə adlandırıram - sorosçuların məqsədi məhz gənclərdir. Ona görə fondlar yaradılır, o fondların xətti ilə ianələr verilir. Müxtəlif yaxşı, gözəl məna daşıyan proqramlar altında məhz bu dağıdıcı missiya həyata keçirilir ki, gəncləri öz dövlətinə qarşı, ilk növbədə, öz əcdadlarına, öz tarixinə qarşı, öz dəyərlərinə qarşı qaldırsınlar və sonra onlardan zombi kimi istifadə etsinlər". Dövlət başçısı qeyd edib ki, milli dəyərlər təkcə əcdadlar qarşısında bizim mənəvi borcumuz deyil, eyni zamanda, ölkəmizi daim müstəqil saxlamaq, ölkəmizi daim kənar təsirdən qorumaq və nəsillər arasındakı o mənəvi ipləri qırmamaq üçün bu, mütləq lazımdır.

**Prezident vurğulayıb ki, müharibədə iştirak etmiş və qəhrəmanlıq göstərmiş gənclər öz əməlləri ilə yeni yetişən nəsil üçün də nümunə olmalıdırlar:** "Bu gün bizim qəhrəman gənclərimiz - dövlət tərəfindən yüksək orden, medallarla təltif edilmiş gənclərimiz gənc yaşlarında uşaqlar üçün nümunə olublar, 18, 20, 25, 30, 35 yaşında nümunə olublar. Onlar bu məsuliyyəti dərk edirlər və həyatda özlərini elə aparmalıdırlar ki, bu yüksək məsuliyyət daim onların üzərində olsun, uşaqlar, yeniyetmələr onlara baxıb, onlar kimi olmaq istəsinlər. Müharibədə iştirak etmiş və qəhrəmanlıq göstərmiş on minlərlə Azərbaycan gəncinin üzərinə indi bax bu məsuliyyət düşür və əminəm ki, gənclər bunu dərk edir və öz əməlləri ilə yeni yetişən nəsil üçün də nümunə olacaqlar".

**"Cəmiyyət və iqtidar birmənalı şəkildə milli maraqların keşiyində dayanır"**

**Ölkə rəhbəri bəyan edib ki, Azərbaycan cəmiyyəti və Azərbaycan iqtidarı birmənalı şəkildə milli maraqların keşiyində dayanır:** "Qloballaşma bu gün başqa ad altında kök salır. Bu meylin əsas məqsədi müxtəlif ölkələrin daxili işlərinə qarışmaq, bərabərlik, qloballaşma, yaxud da insanları, xüsusilə gəncləri vahid dəyərlər, dırnaqarası dəyərlər ətrafında birləşdirmək, kosmopolit gənclər yetişdirmək və təbii ki, ondan sonra o ölkələri idarə etməkdir". Prezident bildirib ki, uzaq tarixə nəzər salsaq görərik ki, məqsəd və məram dəyişmir, forma, mübarizə üsulları dəyişir: "Hegemonluq uğrunda mübarizə, xüsusilə böyük önəm daşıyan ölkələr, zəngin təbii resurslarla özünü təmin etmiş ölkələr və çox strateji coğrafi yerləşməyə malik olan ölkələr xüsusi diqqət cəlb edir. Azərbaycan da bütün bu amilləri özündə ehtiva etdiyi üçün biz bunu hər zaman, müstəqillik illərində dəfələrlə görmüşük. Bax, bu niyyətlə üzləşirik, buna müqavimət göstəririk və deyə bilərəm ki, bu təhlükələri dəf edə bilmişik. Bu gün Azərbaycan cəmiyyəti və Azərbaycan iqtidarı birmənalı şəkildə milli maraqların keşiyində dayanır".

**İsmayıl**



## Mehriban Əliyeva Gənclər Günü ilə bağlı paylaşım edib

**Birinci vitse-prezident Mehriban Əliyeva instaqram səhifəsində 2 fevral-Gənclər Günü ilə bağlı paylaşım edib.**

Paylaşımda deyilir:

"Ölkəmizin gələcək tərəqqisi yolunda gənclərimizə uğurlar arzulayıram!".



## Prezident iki Xalq artistinə ev verdi

**Prezident İlham Əliyevin göstərişi ilə iki Xalq artistinə ev verilib.**

Oxu.az əbər verir ki, mənzil alanlardan biri Xalq artisti, tarzən Malik Mansurovdur.

Digəri isə M.Mansurovun qardaşı, Xalq artisti, kamança ifaçısı Elşən Mansurovdur.

Onların hər ikisi üçotaqlı mənzillə təmin olunub.

# ABŞ ərazisinin yarıya qədəri qar örtüyü altında qalacaq

## "Lendon" adlı güclü fırtına fevralın 4-nə qədər davam edəcək



**Fevralın 2-dən etibarən ABŞ ərazisinin təqribən yarısı qar örtüyü altında qalacaq.**

Azərtac Amerika KİV-lərinə istinadla xəbər verir ki, "Lendon" adlı güclü fırtına fevralın 4-nə qədər davam edəcək. Bu fırtına Orta Qərbə və ABŞ-ın mərkəzi hissəsinə doğru hərəkət edən soyuq cərəyanın nəticəsidir.

Hazırda Koloradodan şimal-şərqə, şimalda Texasa, Çikaqo və Detroyta qədər təqribən 1500 kvadrat kilometrini əhatə edən ərazidə fırtına barədə xəbərdarlıq edilib. Sonrakı üç gündə "Lendon" Texasdan Menə qədər olan əraziyə də yayıla bilər. Kolorado ştatının bəzi hissələrinə qarın qalınlığının 30 santimetrə çatacağı gözlənilir. Şimali Texasın bəzi hissələrində də qar yağması ehtimalı var.

ABŞ Milli Meteoroloji Xidmətinin məlumatına görə, Nyu-Meksikodan Nyu-Hempşirə qədər 15 ştatda əlverişsiz hava şəraiti fırtınanın güclənməsinə imkan yaradır.

Sinoptiklər fırtınanın istiqamətininNyu-Yorka və Vaşinqtona tərəf dəyişib-dəyişməyəcəyini hələ dəqiq deyə bilmirlər, lakin çərşənbə axşamı verilən məlumata görə, fevralın 3-də Nyu-Yorkda sulu qar yağması gözlənilir.

# İllər sonra bir ilk

## Ermənistandan havalanan göyərtəsində 64 sərnişin olan təyyarə İstanbula enib



Yerevan-İstanbul-Yerevan aviareysləri 3 il müddətinə "hava vergisi"ndən azad ediləcək

**Emənistanla Türkiyə arasında birbaşa uçuşlar bərpa olunub.**

**Ermənistanın "Flyone Armenia" aviadaşıyıcısı İrəvan-İstanbul-İrəvan marşrutu üzrə ilk uçuşu gerçəkləşdirib..**

Yerli vaxtla saat 18:00-da göyərtəsində 64 sərnişin olan "Flyone Armenia" aviaşirkətinin təyyarəsi İrəvandakı Zvartnots hava limanından İstanbula yola düşüb. Təyyarə Türkiyə vaxtı ilə saat 19:50-də İstanbula enib. Sərnişinləri gül-çiçəklə qarşılayıblar.

Trend-in məlumatına görə, həftədə üç dəfə baş tutacaq reyslərə biletlərin qiyməti də açıqlanıb.

Belə ki, "Pegasus" aviaşirkətinin reysləri üzrə Yerevan hava limanından İstanbulun Sabiha Gökçen hava limanına bilet qiymətləri 69,99 avrodan, Sabiha Gökçen hava limanından Yerevana biletlər 59,99 avrodan başlayacaq.

"FlyOne Armenia"nın reyslərinə bilet qiymətləri 39 avrodan başlayacaq. "Pegasus" İstanbuldan Yerevana həftənin bazar ertəsi, cümə axşamı və şənbə günləri, Yerevandan İstanbula çərşənbə axşamı, cümə və bazar günləri uçuşlar keçirəcək. "FlyOne Armenia"nın reysləri isə bazar ertəsi, çərşənbə və cümə günləri baş tutacaq.

Qeyd edək ki, bir müddət öncə Bakı-İstanbul və Yerevan-İstanbul bilet qiymətləri geniş müzakirələrə səbəb olmuşdu. Sosial şəbəkə istifadəçiləri Yerevan-İstanbul bilet qiymətlərinin daha ucuz olmasını bildirirdilər. Müqayisə üçün qeyd edək ki, Bakıdan İstanbula bilet qiymətləri 29 avrodan başlayır. Bu qiymət isə Yerevan-İstanbul biletinin qiymətindən 10 avro ucuzdur.

Qeyd edək ki, Yerevan-İstanbul-Yerevan aviareysləri 3 il müddətinə "hava vergisi"ndən azad ediləcək. Bu güzəşt yalnız Pegasus Airlines və Flyone Armenia şirkətlərinə tətbiq ediləcək.

Daha əvvəl Türkiyənin Nəqliyyat və İnfrastruktur Nazirliyinin yaydığı məlumatda bildirilmişdi ki, Ermənistana qarşılıqlı uçuşlar fevralın 2-də başlayacaq.

Xatırladaq ki, Türkiyə ilə Ermənistan arasında diplomatik münasibətlər hələ bərpa olunmayıb. 2021-ci il dekabrın 13-də Türkiyə xarici işlər naziri Mövlud Çavuşoğlu bəyan edib ki, münasibətlərin normallaşması üçün qarşılıqlı şəkildə nümayəndələr təyin olunacaq. Ermənistan XİN-i bu bəyanatı dəstəkləyib.

Sonra Ankara Türkiyənin ABŞ-dakı keçmiş səfiri Serdar Kılıcı İrəvanla münasibətlərin normallaşması üzrə xüsusi nümayəndə təyin edib. Ermənistan tərəfdən parlamentin sədr müavini Ruben Rubinyan təyin edilib.

*Xüsusi nümayəndələrin ilk görüşü yanvarın 14-də Moskvada baş tutub.*

# CNN: Bayden Şərqi Avropaya əlavə qoşun göndərilməsini təsdiqləyib



**ABŞ Prezidenti Co Bayden Şərqi Avropaya əlavə hərbi qüvvələrin göndərilməsini təsdiqləyib.**

APA-nın xəbərinə görə, bu barədə CNN ABŞ Administrasiyasındakı mənbələrə istinadən məlumat yayıb.

Mənbələr bildirib ki, qoşunların köçürülməsi yaxın günlərdə baş tutacaq. CNN-in mənbələrinə görə, Polşada 2 min, Rumıniya da daxil olmaqla NATO-nun cənub-şərq cinahında daha bir neçə min hərbçi yerləşdiriləcək. Pentaqonun yaxın vaxtlarda əlavə qüvvələrin yerləşdirilməsi barədə rəsmi açıqlama yayacağı gözlənilir.

"The Wall Street" jurnalı 3000-dən çox əsgərin avropalı müttəfiqlərlə həmrəylik nümayişi üçün göndəriləcəyini yazıb. Onlardan təxminən 2000-i Fort Braqqdan Polşa və Almaniyaya, daha 1000 əsgər isə Almaniyadan Rumıniyaya göndəriləcək. Bunun həftəsonunadək baş tutacağı bildirilib.

# Azərbaycan topu yenə Qərbə atdı

## Görünür ki, regionda "şimal küləkləri" güclənib



**Hərbi işğal faktı sona çatıb və Azərbaycan güc tətbiq etməklə dövlətlərin beynəlxalq səviyyədə tanınmış sərhədlərinin dəyişdirilməsinə dair yanlış nümunəyə son verib.**

Bunu Prezidentin köməkçisi Hikmət Hacıyev "ABŞ-Xəzər Diplomatik Münasibətlərinin 30 ili" adlı vebinarda deyib. H.Hacıyev bildirib ki, Azərbaycan sülh gündəliyini izləyir. Bu, gündəlik qonşu və tərəfdaş ölkələrlə dinc əlaqələrin yaradılması mesajıdır. Prezidentin köməkçisi vurğulayıb ki, Azərbaycan tərəfdaş və qonşu ölkələrlə birlikdə Cənubi Qafqazın münaqişə və müharibələrdən azad regiona çevrilməsi istiqamətində fəaliyyət göstərir. Regionun parçalanmadan inteqrasiyaya, qarşılıqlı faydalı əlaqələrə əsaslanan regional əməkdaşlığa yönəlməsinə çalışır. Hikmət Hacıyev qeyd edib ki, Ermənistan və Azərbaycan arasında sülh sazişinin imzalanmasına dair danışıqlar beynəlxalq hüquqa uyğun aparılmalıdır: "Bu saziş beynəlxalq hüququn fundamental norma və prinsiplərinə, xüsusilə də ərazi bütövlüyü və ölkələrin suverenliyi prinsiplərinə əsaslanmalıdır. Regionun yeni brendinq strategiyasına ehtiyacı var. Azərbaycan inteqrasiya edilmiş Cənubi Qafqaz regionunun inşası üçün öz rolunu oynamağa hazırdır. Biz burada ABŞ-ı vacib tərəfdaş kimi görürük". Prezidentin köməkçisi diqqətə çatdırıb ki, regionda açılacaq yeni dəhlizlər, xüsusilə də Zəngəzur dəhlizi Ermənistanı blokadadan çıxara və geniş quru əlaqələri olan ölkəyə çevrilə bilər: "Bizim Mərkəzi Asiyadan olan tərəfdaşlarımız da Zəngəzur dəhlizindən faydalana bilərlər. Amma Zəngəzur dəhlizi bizim qonşu Gürcüstanla regionda yaratdığımız digər potensial dəhlizləri istisna etmir". Administrasiya rəsmisinin sözlərinə görə, Ermənistan regional əməkdaşlığın rol modeli olan və hörmətə əsaslanan qarşılıqlı faydalı Gürcüstan-Azərbaycan əməkdaşlığından öyrənə bilər.

> "Vaşinqton sırf enerji məsələsinə görə yox, digər rıçaqlarla da təhlükəsizlik konfiquriyasına töhfə verməlidir"

**Siyasi şərhçi Aqşin Kərimov vurğulayıb ki, Prezidentin köməkçisi Hikmət Hacıyev regiondakı yeni təhlükəsizlik siyasətinin qurulmasında ABŞ-ı vacib tərəfdaş kimi gördüyünü açıqlayıb:** "Azərbaycan topu yenə Qərbə atdı. Görünür ki, regionda "şimal küləkləri" güclənib və Azərbaycan "Qərb küləyi" amili ilə neytrallaşdırma siyasəti yürüdür. Amma düşünmək olmaz ki, Azərbaycan Rusiyaya qarşı cəbhə yaradır, bu, sadəcə yeni müdafiə mexanizmidir. İndi Ağ Evin prosesi dəyərləndirməsi qalır. Vaşinqton sırf enerji məsələsinə görə yox, digər rıçaqlarla da təhlükəsizlik konfiquriyasına töhfə verməlidir".

**Beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli də bildirib ki, Hikmət Hacıyevin "sülh sazişinin imzalanmasına dair danışıqlar beynəlxalq hüquqa uyğun aparılmalıdır. Biz burada ABŞ-ı vacib tərəfdaş kimi görürük" fikri yeni mərhələnin başlanmasından xəbər verir:** "Azərbaycan tərəfi mövqeyini Şuşa Bəyannaməsindən sonra açıqlayıb. Avropa İttifaqının Azərbaycandan qaz istəməsi məsələsi gündəmdədir. Rusiya Müdafiə Nazirliyinin Qarabağa gedən Azərbaycan maşınlarını terrorçularla birgə yoxlaması barədə görüntülərin yayılması etirazlara səbəb olub. Bu hadisələr fonunda belə bir açıqlama ciddi mesaj mahiyyəti daşıyır".

**İsmayıl**

# Türkiyə Ermənistana növbəti şans verib

## Qonşu ölkədə revanşist səslər get-gedə zəifləyir



**Türkiyə Ermənistanla normallaşma prosesində bir daha sülh və diplomatiyanın tərəfdarı olduğunu nümayiş etdirdi. Bu barədə hakim Ədalət və İnkişaf Partiyasının sözçüsü Ömər Çelik deyib. O, qeyd edib ki, Ermənistanla uçuşlar bərpa olunur, amma bu nöqtəyə gəlib çıxmaq üçün uzun bir yol qət edilib. Çelik əlavə edib ki, Vətən Müharibəsi bu normallaşmanın baş verməsi və bölgədəki sülh üçün bir fürsət yaradıb:**

”Bu normallaşma addımları Azərbaycanın razılığı ilə atılır”. Ermənistanın XİN başçısı Ararat Mirzoyan da Türkiyə ilə əlaqələrin normallaşmasından danışıb. Nazir bildirib ki, Ermənistanın mövqeyində heç bir dəyişiklik baş verməyib. Onun sözlərinə görə, İrəvan hesab edirdi ki, ilkin şərt olmadan Türkiyə ilə sərhədlər açılmalı və diplomatik əlaqələr qurulmalıdır. Mirzoyan Moskvada baş tutan ilk görüşdə bir çox məsələlərə toxunmadıqlarını bildirsə də, ümumən prosesin müsbət istiqamətdə getdiyini deyib.

Rusiyadan sonra ABŞ da Türkiyə-Ermənistan münasibətlərində vasitəçilik niyyətini açıqlayıb. Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Karen Donfrid vurğulayıb ki, Vaşinqton Ankara-İrəvan arasındakı barışıq prosesində rol oynamağa hazırdır: ”Ağ Ev hər iki ölkənin diplomatiya və dialoq qurmasını alqışlayır”. O, Ermənistan və Türkiyə xüsusi nümayəndələrinin yanvarda Moskvada keçirilən birinci görüşündən məmnun olduqlarını deyib: ”Türkiyə-Ermənistan dialoqu regional sabitliyi artırmaq və region üçün daha firavan gələcək yaratmaq potensialına malikdir”.

**Türkiyə ilə Ermənistan arasındakı normallaşma addımlarını ”Şərq”ə təhlil edən Azərbaycan Milli İstiqlal Partiyasının sədri Arzuxan Əlizadə bildirib ki, iki ölkə arasında sərhədlərin bağlanmasının, diplomatik əlaqələrin kəsilməsinin əsas səbəbi Azərbaycan torpaqlarının işğal faktı ilə bağlı idi.** Partiya rəhbəri xatırladıb ki, Türkiyə İrəvan qarşısında konkret şərt qoymuşdu ki, Azərbaycan torpaqları işğaldan azad olunana kimi Ermənistanla normallaşmadan söhbət gedə bilməz: ”Torpaqların əksər hissəsi işğaldan azad ediləndən sonra Türkiyə-Ermənistan münasibətlərində yeni mərhələnin başlanğıcı qoyuldu. Lakin qardaş ölkənin Prezidenti R.T.Ərdoğandan tutmuş digər səlahiyyətli rəsmiləri birmənalı bəyan ediblər ki, danışıqlar Azərbaycan rəhbərliyi ilə razılaşdırılır. Ermənistanla bağlı addımlar rəsmi Bakı ilə koordinasiyalı atılır. Əgər İrəvan hakimiyyəti Azərbaycanın tələblərinə müsbət cavab verməzsə, ölkəmizə qarşı ritorikasından əl çəkməzsə, Türkiyə-Ermənistan nümayəndələrinin təmasları nəticəsiz olacaq. Prosesin irəli getməsi üçün İrəvan sağlam müzakirələri davam etdirməkdə maraqlı olmalıdır. Ermənistan normal iqtisadi inkişafa nail olmaq üçün mütləq mənada Türkiyə və Azərbaycanla münasibətləri düzəltməlidir. Paşinyan hökuməti bunun fərqindədir və Türkiyə ilə əlaqələri yaxşılaşdırmaq istəyir. Türkiyədə 100 mindən artıq erməni əsilli vətəndaş var. Ondan daha çox Ermənistan vətəndaşı Türkiyədə müvəqqəti yaşayır və işləyir. İlk görüş Moskvada baş tutsa da, Ankara hökuməti növbəti danışıqların İstanbulda, yaxud başqa məkanda aparılmasının vacibliyini diqqətə çatdırdı. Bu, dolayı yolla Rusiyanın vasitəçiliyinə ehtiyac olmadığını, məsələlərin ikitərəfli danışıqlar formatında müzakirəsini gündəmə gətirmək idi”.

> “Erməni toplumu dərk edir ki, regionda Türkiyə və Azərbaycanın mövcudluğunu, gücünü nəzərə almadan inkişaf etmək qeyri-mümkündür”

**A.Əlizadə vurğulayıb ki, Türkiyə Ermənistana növbəti şans verib.** Ermənistan bu şansı dəyərləndirmək üçün Türkiyəyə qarşı bütün ərazi iddialarından, qondarma ”soyqırım” uydurmasından birdəfəlik vaz keçməlidir. Eyni zamanda konstitusiyasında dəyişiklik edərək, gerbində əks olunan Ağrı dağını götürməlidir. Ermənistanda bununla bağlı kampaniya başlanıb. Hətta referendum yolu ilə konstitusiyanın dəyişdirilməsi də müzakirə olunmaqdadır. Təbii ki, buna kəskin surətdə qarşı çıxanlar, Paşinyanın addımlarını ölkəyə ”xəyanət” kimi dəyərləndirənlər də var. Ancaq get-gedə bu səslər zəifləməkdədir. Erməni toplumu dərk edir ki, regionda Türkiyə və Azərbaycanın mövcudluğunu, gücünü nəzərə almadan inkişaf etmək qeyri-mümkündür. Onu da yaxşı bilirlər ki, Rusiya heç vaxt müdafiə etdiyi dövlətlərin arxasında sona qədər dayanmayıb. O baxımdan tədricən erməni cəmiyyətinin də revanşist və düşmənçilik ritorikasından əl çəkəcəyi ehtimalı böyükdür”.

**İsmayıl Qocayev**





# “Azərbaycan ABŞ-ı Qafqazdakı proseslərdə tərəfdaşlığa dəvət edir"

## **Əziz Əlibəyli:** “Rəsmi Bakının ABŞ-ı vacib tərəfdaş kimi görməsinin əsas səbəbi Paşinyan administrasiyasının Amerika və Avropadakı mövqeyi ilə bağlıdır”

**Azərbaycan Respublikası Prezidentinin köməkçisi Hikmət Hacıyev ”Caspian Policy Center”in təşkil etdiyi ”ABŞ-Xəzər Diplomatik Münasibətlərinin 30 ili” adlı vebinarda çıxış edib. Prezidentin köməkçisi bildirib ki, Azərbaycan sülh gündəliyini izləyir və bu gündəlik qonşu və tərəfdaş ölkələrlə dinc əlaqələrin yaradılmasına mesajdır.**

H.Hacıyev Azərbaycanın tərəfdaş və qonşu ölkələrlə birlikdə Cənubi Qafqazın münaqişə və müharibələrdən azad regiona çevrilməsi istiqamətində fəaliyyət göstərdiyini vurğulayıb. O, eyni zamanda diqqətə çatdırıb ki, Ermənistan və Azərbaycan arasında sülh sazişinin imzalanmasına dair danışıqlar beynəlxalq hüquqa uyğun aparılmalıdır:

”Bu saziş beynəlxalq hüququn fundamental norma və prinsiplərinə, xüsusilə də ərazi bütövlüyü və ölkələrin suverenliyi prinsiplərinə əsaslanmalıdır. Regionun yeni brendinq strategiyasına ehtiyacı var. Azərbaycan inteqrasiya edilmiş Cənubi Qafqaz regionunun inşası üçün öz rolunu oynamağa hazırdır. Biz burada ABŞ-ı vacib tərəfdaş kimi görürük”.

**Sosial Tədqiqatlar Mərkəzinin Mətbuat Xidmətinin rəhbəri, beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli prezident köməkçisinin yekun sülhlə bağlı fikirlərini ”Şərq”ə dəyərləndirib. O bildirib ki, hazırda bu məsələdə rəsmi Bakının ABŞ-ı vacib tərəfdaş kimi görməsinin əsas səbəbi Paşinyan administrasiyasının Amerika və Avropadakı mövqeyi ilə bağlıdır:**

”Çünki indi Paşinyan ATƏT-in Minsk qrupunun yenidən ”dirilməsi” ilə bağlı iddiaları məhz Amerikadan aldığı tezislər vasitəsilə gündəmə gətirməkdədir. Hazırda bu məsələlərdə Amerikanın adının çəkilməsi həm də Azərbaycanın çoxvektorlu Rusiya və ABŞ-a yönəlik siyasətinin olmasını göstərir”.

**Ə.Əlibəylinin fikrincə, Azərbaycan tərəfinin belə açıqlaması həm də onun Ermənistan-Azərbaycan arasında sülh sazişinin imzalanması prosesində Rusiyanın monopoliyanı əlində cəmləşdirməsini istəmədiyini göstərir:** ”Beynəlxalq hüquq deyir ki, ölkələrin ərazi bütövlüyü və suverenliyi pozulmamalıdır. Amma Azərbaycanın ərazi bütövlüyü pozulub. Bu baxımdan da beynəlxalq hüququn təməlləri, insan haqları da müharibə cinayətlərinə görə pozulub. ABŞ dünyada demokratiyanın beşiyi və onun keşiyində duran ölkə kimi qəbul olunur. Azərbaycan da məhz bu məsələdə, Qafqazdakı proseslərdə onu ciddi şəkildə tərəfdaşlığa dəvət edir. Bununla da rəsmi Bakı beynəlxalq hüququn da keşiyində durulmasının labüdlüyünü diqqətə çatdırır”.

**Günəş Mərd**



# Fəxr edə bilərik!

## “Gənclərimiz vətən, millət, bayraq mövzusunda həmişə həssas davranıblar”

**Günəş Mərd**

**Fevralın 2-də Bakıda Azərbaycan Gəncləri Gününün 25 illiyinə həsr olunmuş Gənclər Forumu keçirilib. Azərbaycan Prezidenti İlham Əliyev Forumda iştirak edib. Dövlət başçısı giriş nitqi söyləyərək ölkə gənclərinin fəaliyyətinə diqqət çəkib:**

”Biz haqlı olaraq fəxr edirik ki, Azərbaycan vətəndaşlarıyıq və gənclər həm öz gələcək həyatını düzgün müəyyən etmək üçün və eyni zamanda, dövlətə maksimum xeyir vermək üçün fəal olmalıdırlar. Mən bu sözləri deməklə, eyni zamanda, Azərbaycan gənclərinə həm ürək sözlərimi deyirəm, həm də təşəkkür sözümü deyirəm. Çünki bir çox hallarda, xüsusilə Vətən müharibəsində gənclərin rolu həlledici olmuşdur və biz haqlı olaraq gənclərimizlə fəxr edə bilərik”.

**Sosial Tədqiqatlar Mərkəzinin baş məsləhətçisi, politoloq Tural İsmayılov ölkə başçısının Gənclər Forumundakı çıxışından ”Şərq”ə danışarkən bildirib ki, Azərbaycanda Gənclər Günü Ulu Öndər Heydər Əliyevin hakimiyyəti illərində dövlətin gənclər siyasəti nəzdində tərtib edilib:**

”Azərbaycan gəncliyinin intellektual inkişaf etdirilməsi, eyni zamanda sosial-iqtisadi və məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı dəfələrlə dövlət siyasəti həyata keçirilib. Bu gün də dövlət başçımız tərəfindən həmin dövlət siyasəti davam etdirilir. Düşünürəm ki, bu amil Azərbaycan gəncliyinin hərbi vətənpərvərlik ruhda tərbiyəsində olduqca əhəmiyyətlidir. Bu gün intellekt səviyyəsindən və sosial nüfuzundan asılı olmayaraq hər bir Azərbaycan ailəsində gənclərin vətənpərvərlik ruhunda böyüdülməsinə çalışılır”.

**Politoloq ölkə gənclərinin İkinci Qarabağ savaşındakı fəaliyyətinə diqqət çəkib:**

”Gənclərimiz vətən, millət, bayraq mövzusunda həmişə həssas davranıblar. Məhz bunun nəticəsidir ki, onlar 44 günlük savaşda Ali Baş Komandanın ətrafında tək yumruq olaraq birləşib torpaqlarımızı işğaldan azad etdilər. İndi özəlliklə KİV-lərimiz hərbi vətənpərvərlik ruhunda maarifləndirmə prosesini davam etdirməlidir. Eyni zamanda ailələrdə gənclərin yetişdirilməsində bu tərbiyənin önəmi və mənəvi tərəfi mütləq şəkildə dərk edilməlidir”.

*T.İsmayılov aparılan olimpiya və idman siyasəti nəticəsində Azərbaycan gənclərinin böyük uğurlar əldə etdiyini vurğulayıb:*

”Gənclərimiz bir sıra dünya səviyyəli, beynəlxalq elmi yarışlarda fənn olimpiadalarında yüksək göstəricilər əldə edir. Həmçinin ölkə gəncləri özəlliklə dünya səviyyəli bir çox startap layihələrdə kifayət qədər yaxşı performans sərgiləyə bilir”.

**Politoloq Cənubi Qafqazda lider olan Azərbaycan gəncliyinin bütün hallarda Avrasiya məkanında seçildiyini diqqətə çatdırıb:**

”Bundan sonra da torpaqları işğaldan azad edilmiş bir dövlətin qürurlu gənclərinin üzərinə böyük vəzifələr düşür”.

# Azərbaycanda futbolçu nəsli tükənir

## **Aqil Abbas:** “Bacarığı olan istedadlı gənclər yoxa çıxır”



**Dünyada uşaq futboluna xüsusi önəm verilir. Futbolun inkişafı üçün uşaq futboluna təkan verilməlidir. Gələcəyin Messi, Ronaldo kimi futbolçuları akademiyalarda yetişir. ”Zirə”nin baş məşqçisi Rəşad Sadıqov isə söyləyir ki, get-gedə Azərbaycanda futbolçu nəsli kəsilir. Onun fikrincə, aşağı yaş qruplarında vəziyyət yaxşı deyil.**

AFFA-nın konfransında qurumun icraçı vitse-prezidenti Elxan Məmmədov da uşaq futbolu barədə fikirlərini bölüşüb. E.Məmmədov məktəblərdə idman dərslərinin həftədə iki dəfədən çox olmasını təklif edib:

”Bunun ancaq müsbət təsiri olar. Uşaqlıqdan məktəblərdə sağlam həyat tərzi təbliğ olunmalıdır. Təəssüf ki, pandemiya uşaqların sayına da təsir göstərdi. 20 faiz azalma var. Pandemiyadan əvvəl uşaq futbolçularının sayı 10 196 idisə, indi 8 351-ə düşüb”.

**Azərbaycanda uşaq futbolunun gələcəyi ilə bağlı ”Şərq”ə danışan millət vəkili Aqil Abbas bildirib ki, rayonlarda bu sahəyə əhəmiyyət verilmir:**

”Qəbələ”, ”Neftçi”, ”Qarabağ” futbol akademiyaları var. Əsas ”Qəbələ”nin akademiyası uşaq futboluna daha çox diqqət yetirir. Böyük stadionlar, Olimpiya Kompleksləri tikirlər, amma işlə məşğul olan yoxdur. Yeni gənclər və idman naziri təyin olunub. Gənc oğlandır, bəlkə, bu işlərlə maraqlanar. Pul hər şey deyil, əsas məsələ mütəxəssis tapmaq və uşaqları cəlb etməkdədir. Uşaq futbolunun yetirmələri böyüyəndən sonra komandalarda yer tuta bilmir, ortada qalırlar. Ona görə də insanlar futboldan inciyirlər. Övladını aparıb futbola qoysun, sonra harda oynayacaq? 8 komanda var, nəsil 5-6 ildən bir dəyişir. Gərək, Yüksək Liqada komandaların sayı çoxalsın, futbolçu cəlb etmək mümkün olsun. SOKAR nə etsin? Pul rol oynamır”.

*A.Abbaslının sözlərinə görə, futbola bacarığı olan istedadlı gənclər yoxa çıxır:*

”Bacımoğlu yaxşı futbolçu idi. Onu futboldan ayırdım. İndi işləyir, mayordur. O vaxt Türkiyə onunla maraqlanırdı. Dedim ki, heç yerə getmə, oxu, işlə, belə olmaz. Görün, nə qədər belə potensiallı uşaqlar məhv olur.

Vaxtilə Ağdamda uşaqlar arasında bir neçə çempionat keçirilirdi. Kəndlər, kolxozlar, məhəllələrarası yarışlar təşkil edilirdi. İndi Ağdamın özündə də belə yarışlar keçirilmir. Artıq rayonlarda ənənə qalmayıb.

Layihə hazırlamaq lazımdır. Braziliyalı Ziko adıyla tanınan Artur Antunes Coimbra məşhur futbolçu var. Yaponlar oturub işlədilər, onu da dəvət etdilər. Həmin futbolçu baş məşqçi oldu. Sonra yaponlar Dünya Çempionatında ikinci yer tutdular. Hazırda yapon futbolçuları Avropa, Asiyada hər yerdə oynayır.

İngiltərədə, İspaniyada, İtaliyada öndə gedən komandalarda yaponlar yer alıb. Gərək, Azərbaycanda da futbol konsepsiyası hazırlansın”.

**Aygün Tahir**

# Azərbaycan XİN-in cavabı yerindədir

## “Ermənistana qarşı atacağımız addım çox önəmlidir”



**Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva Ermənistan xarici işlər nazirinin ”Azərbaycanın beynəlxalq təşkilatların Qarabağda fəaliyyətinə maneə törətməsi” ilə bağlı fikrinə münasibət bildirib.**

Azərbaycanın XİN rəsmisi ölkənin beynəlxalq təşkilatlarla qarşılıqlı faydalı və uğurla inkişaf edən münasibətlərinin mövcud olduğunu xatırladıb: ”Üçüncü dövlətin nümayəndəsinin bu xüsusda şərhi yersiz və əsassızdır. Yaxşı olardı ki, Ermənistan xarici işlər naziri bilavasitə ölkəsinin üzərinə götürdüyü öhdəliklərin icrası və bölgədə sülhün quruculuğu ilə bağlı məsələləri şərh etsin”.

Azərbaycan regionda sülhün təmin olunması üçün perspektivli addımlar atır. Mühüm danışıqlar aparır. Delimitasiya və demarkasiya məsələlərinin həllindən, müsbət çağırışlardan, tərəflərin əlaqələrinin möhkəmlənməsindən bəhs edir. Ancaq Ermənistan tərəfi məkirli siyasətindən əl çəkmir.

**Mövzu ilə bağlı ”Şərq”ə açıqlama verən ”Beynəlxalq Münasibətlər və Diplomatiya Araşdırmaları Mərkəzi”nin sədr müavini, siyasi şərhçi Teymur Qasımlı deyib ki, Ermənistanın öz çirkin əməllərindən əl çəkən deyil:**

”Beynəlxalq aləmdə ikili standartlar var. Həmçinin ABŞ-ın Ermənistandakı səfiri də status məsələsi ilə bağlı fikir bildirib. Azərbaycanın XİN rəsmisinin cavabı çox yerindədir. Ermənilər mənfi əməllərdən əl çəkənə oxşamır. İki yüz ildir, hansı planla bu prosesləri aparıblarsa, yenə davam edəcəklər. Hazırda müəyyən diplomatik bir döyüş gedir”.

**Analitik məsələlərin həllində bizimlə Ermənistan arasında səssiz diplomatiya aparıldığını vurğulayıb:**

”Amma bu, o demək deyil ki, rəsmi İrəvan absurd hərəkətlər etməlidir. Ona görə də onların bu addımını yeni oyun hesab edirəm. Həmçinin Ararat Mirzoyan bizə təkliflər paketi göndərib. Məncə, burada Rusiya faktoru var. Ancaq bunlar bir kənara, bizim atacağımız addımlar daha vacibdir. Xarici siyasətdə yüz ölçüb, bir biçməliyik. Ermənistanın lazımi cavabını verməliyik”.

**Cəmilə Əzim**

# Aylı-ulduzlu zaman...

## Şuşa Bəyannaməsi tarixə öz damğasını vurdu



"Bu sənəd regionda baş verə biləcək fors-majorların qarşısının alınmasında böyük rol oynayacaq"

İsmayıl Qocayev

**Milli Məclis tarixi Şuşa Bəyannaməsini təsdiqlədi və ortaq sənədlə bağlı daha bir hüquqi prosedur reallaşdı. Bu gün də Türkiyə Böyük Millət Məclisinin sənədi müzakirə edəcəyi gözlənilir. Dünyada gərginliyin günü-gündən artdığı bir vaxtda Şuşa Bəyannaməsinin qlobal, regional və ikitərəfli əhəmiyyətinin böyüklüyü bir daha təsdiqlənir.**

Dövlətlər hazırda terrordan, ərazi bütövlüyünün təhdid edilməsindən, separatçılıqdan əziyyət çəkir. Bu kimi hallar səbəbindən regional və beynəlxalq təhlükəsizlik də təhdid olunur. Təhlükəsizliyin təmin olunması, terrorçuluğa qarşı mübarizə, ərazi bütövlüyünün qorunması da bəyannamənin əsas istiqamətlərindəndir. Son illər Azərbaycanla Türkiyə təhlükəsizlik və ərazi bütövlüyünün təmin olunması məsələsində bir-birinə yardım və dəstəyi daha da artırıb. Hərbi sahədə əməkdaşlıq Şuşa Bəyannaməsinin müddəalarının reallaşması istiqamətində addımlar atıldığına əyani sübutdur.
NATO-nun üzvü olan Türkiyə dünyanın aparıcı ordusuna malikdir. Onun bu üstünlüyündən Azərbaycan tərəfi də sənədə uyğun olaraq faydalanır. Fevralın 1-də Azərbaycanın Müdafiə naziri Zakir Həsənov Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Milli müdafiə naziri Hulusi Akarla görüşüb. Nazirlərin görüşündən sonra iki ölkə arasında hərbi sahədə əməkdaşlıqdan danışan Hulusi Akar bildirib ki, Şuşa Bəyannaməsi yolumuzu və strategiyamızı müəyyən edən bir sənəddir. Akar qeyd edib ki, Azərbaycan və Türkiyə Silahlı Qüvvələrinin gücləndirilməsi digər ölkələr üçün təhlükə deyil: "Biz silahlı qüvvələrimizin inkişafı, ölkələrimizin və millətimizin müdafiəsi üçün işimizi davam etdiririk. Ordularımızın gündən-günə irəliləməsindən də çox məmnunuq. "İki dövlət, tək millət" olan Azərbaycan və Türkiyənin Qafqazda barış və sabitliyin təmin edilməsi üçün əlindən gələn səyi göstərdiyini hər kəs görür. Arzumuz bir an əvvəl barışa, sabitliyə qovuşaraq hamının etibarlı və rifah içində yaşayışını davam etdirməsidir".

Azərbaycanın Müdafiə naziri, general-polkovnik Zakir Həsənov da vurğulayıb ki, ordumuzun Türkiyə modelinə uyğunlaşdırılması istiqamətində islahatlar aparılır: "Prezidentimizin tapşırığı ilə biz Azərbaycan Ordusunun strukturunda Türkiyə Silahlı Qüvvələrinin ordu strukturuna bənzər islahatlar aparırıq. Türkiyənin bu istiqamətdə Azərbaycana böyük dəstəyi var. Biz bu istiqamətdə xeyli yol keçmişik. Əminəm ki, qısa zamanda Azərbaycan Ordusu öz döyüş qabiliyyətini artıracaq və ordu ilə birgə fəaliyyətə hazır olacaq".

**Millət vəkili Sahib Alıyev deyib ki, parlamentin tarixində çox nadir hallarda hər hansı sənəd təqdimatdan dərhal sonra, özü də alqışlarla təsdiqlənir.** Deputat qeyd edib ki, Azərbaycan-Türkiyə müttəfiqliyi əsrlərin sınağından çıxan və təməlində "bir millət, iki dövlət" prinsipi duran, hər iki tərəfin təkcə marağını deyil, bir-birinə bağlılığını, doğmalığını özündə əks etdirən təbii müttəfiqlikdir: " Türkiyənin Milli Qurtuluş Savaşında və Azərbaycanda daşnak-bolşevik cütlüyünə qarşı döyüşlərdə çiyin-çiyinə vuruşan babalarımızın da ruhunu şad etmiş olduq. Hər bir müttəfiqlik anlaşmasının əhəmiyyəti orada nələrin əksini tapması ila yanaşı, həm də nə zaman imzalanması ilə ölçülür. Şuşa Bəyannaməsi zamanında və rəmzi yerdə imzalanan sənəddir. Bu sənəd xalqlarımızın bir-birinə nə dərəcədə möhkəm bağlılığını təsbit etməklə yanaşı, həm də hər iki dövlətin rəhbərinin geosiyasi prosesləri necə dəqiqliklə görüb, ona adekvat reaksiya vermək, qabaqlayıcı addımlar atmaq bacarıqlarını göz önünə sərdi. Aydındır ki, son 30 ildə beynəlxalq konyuktura norma və prinsipləri arxa plana atılaraq ancaq güc faktoru əsasında formalaşdırılır. Əvvəllər böyük güclər öz iradələrini ideoloji pərdə altında yeritməyə çalışırdılarsa, artıq o da yoxdur. Diplomatik etiket aradan götürülüb, az-çox gücü olan hər kəs hədəylə danışır. Şuşa Bəyannaməsi regionda baş verə biləcək fors-majorların qarşısının alınmasında böyük rol oynayır və gələcəkdə daha çox oyanacaq".



# Azərbaycan və Türkiyə bölgədə sülhün tərəfdarıdır

## Hər iki ölkənin rəsmiləri tərəfindən səslənən açıqlamalar da bunu sübut edir

**"Ermənistana uzadılmış sülh əli var. Biz gözləyirik və ümid edirik ki, bu sülh əlinə qiymət veriləcək. Bu yolla biz sülhün təmin olunmasına çalışırıq".**

"Şərq" xəbər verir ki, bunu Türkiyənin Milli müdafiə naziri Hulusi Akar Azərbaycanın Müdafiə naziri, general-polkovnik Zakir Həsənovla birgə mətbuat konfransında deyib.

Nazir qeyd edib ki, firavanlıq təkcə Azərbaycan və Ermənistanda deyil, bütün Qafqazda hökm sürür. Artıq Azərbaycan, Ermənistan və Türkiyə üçlüsündə fərqli aspektlər yaranıb. Regionda sakitliyin, hətta sülhün yaranması üçün müxtəlif danışıqlar aparılır, görüşlər təşkil olunur. Ermənistan tərəfinin bu şəraiti necə dəyərləndirəcəyi məlum deyil. Rəsmi İrəvan Türkiyənin uzatdığı sülh əlini tutmasa...

**Mövzu ilə bağlı "Şərq"ə açıqlama verən sabiq xarici işlər naziri Tofiq Zülfüqarov həm Azərbaycan, həm Türkiyə tərəfinin müharibədən sonra sülhün yaranmasıüçün çağırışlar və çıxışlar etdiyini bildirib:** "Bu da bir növ həm Ermənistana, həm dünya ictimaiyyətinə mesajdır ki, Azərbaycan və Türkiyə bölgədə sülhün və əməkdaşlığın bərqərar olunmasını istəyir. O cümlədən, konkret təfərrüatlar və layihələr barəsində artıq bəyanatlar verilib. Məsələn, "3+3" platformasını misal göstərə bilərəm. Eyni zamanda həm rəsmi Bakı, həm də rəsmi Ankara həmişə bir-birinə dəstək verib".

**T.Zülfüqarov tərəflərin Ermənistana reallığı göstərmək məqsədi olduğunu qeyd edib:** "Azərbaycan öz ərazi bütövlüyü və suverenliyi mövzusunda heç bir güzəştə getməyib, heç bir həmləyə imkan verməyib. Bu baxımdan, hesab edirəm ki, Ermənistana sadəcə olaraq, reallığın hansı həddə olduğunu göstərmək istəyirlər. Başa salmağa çalışırlar ki, Azərbaycana və ya Türkiyəyə qarşı düşmənçilik siyasəti yürütmək ilk növbədə, özlərinin xeyrinə deyil. Bu cür bəyanatlar lazımdır ki, ermənilər doğru seçim eləsinlər. Əgər köhnə siyasətlərini davam etdirsələr, "Dəmir yumruğu" başlarında görəcəklər".

**Cəmilə Əzim**

# "Şeytan barmağı" öz işindədir

## Azərbaycan avtomobillərini erməni separatçıların yoxlaması hiddət doğurdu



"Separatçı və işğalçıların, eləcə də Rusiya hərbçilərinin torpaqlarımızdakı təxribatçı davranışlarına göz yummaq, hadisələri malalamaq olmaz"

**Suqovuşan-Kəlbəcər istiqamətində hərəkət edən Azərbaycan avtomobilinin yoxlanmasını əks etdirən video-görüntülər sosial şəbəkədə kəskin etirazlara səbəb olub. Çəkiliş zamanı aydın olub ki, Suqovuşan-Kəlbəcər marşrutu ilə hərəkət edən avtomobillər sadəcə Rusiya sülhməramlıları yox, "polis" uniforması geyinmiş erməni separatçılar tərəfindən də yoxlanılır.**

Separatçıların Azərbaycan torpaqlarında özlərini "ev sahibi" kimi aparması və Rusiya sülhməramlılarının buna imkan verməsi ölkə ictimaiyyətini hiddətləndirib. Ekspertlərin fikrincə, rus "sülhməramlıları" narazılıq doğuran addımlarla xalqın səbr kasasını doldurmaqdadır.

**Yayılan video-görüntülərlə bağlı "Şərq"ə danışan Vətəndaş Həmrəyliyi Partiyasının sədr müavini Samir Əsədli deyib ki, təxminən bir il əvvəl Qarabağda bir dəstə erməni Drmbon kəndi istiqamətində avtomobil yolunu bağlayaraq, ultimatum irəli sürmüşdü.** Həmin vaxt 5-10 nəfərlik "aksiya" iştirakçılarının qarşısına çıxan sülhməramlı general "erməniləri başa düşdüyünü" və onların tələbinin rəhbərliyə çatdırılacağını demişdi. Sözarası Qarabağı da "Artsax" adlandırmağı unutmamışdı: "Bu faktı boş yerə xatırlatmıram. Bunun ardınca sosial şəbəkələrdə Ağdərə-Kəlbəcər yolu ilə Kəlbəcərə tikinti materialları daşıyan maşınlarımızın Azərbaycan bayrağı və nömrəsi ilə hərəkətinə sülhməramlılar tərəfindən qadağa qoyulmasına dair video yayılmışdı. Məlum olmuşdu ki, rus hərbçiləri Suqovuşandan o yana avtomobillərimizin Azərbaycanın suveren ərazilərinə öz bayrağı altında hərəkətinə "icazə" vermir. Tikinti materiallarını boşaltdırır və öz maşınlarına yüklətdirir. Çünki bu daşımanı ancaq Rusiya nömrəli maşınlar həyata keçirə bilər. İndi Azərbaycan avtomobillərini erməni separatçılarının yoxlaması da eyni senarinin tərkib hissəsidir. Sülhməramlıların bizim maşınların Ağdərə-Kəlbəcər yolu ilə hərəkətinə qadağa qoymasının səbəbi Qarabağla Ermənistanı birləşdirən ikinci yolun - Ağdərə-Vardenis yolunun açılması tələbinə rəsmi Bakının razılıq verməməsidir. Şübhəsiz, icazə verib-verməmək bizim haqqımızdır. Söhbət Azərbaycanın suveren sərhədləri daxilindəki ərazilərdən və yollardan gedir. Üçtərəfli razılaşmada Qarabağın dağlıq hissəsini Ermənistanla birləşdirən yeganə yol - Laçın dəhlizi göstərilib. Deməli, ermənilər canları çıxıb həmin yolla hərəkət etməlidirlər".

**S.Əsədliyə görə, Qarabağa "şeytan barmağı" kimi girən Rusiya ordusu bütün dünyanın Azərbaycan ərazisi kimi tanıdığı torpaqlarımızda sərbəst hərəkətimizə icazə vermir:** "Ruslar burada sözün əsl mənasında ağalıq edirlər. Qarabağ "münaqişəsi"nin odu 44 günlük savaş nəticəsində, şəhidlərimizin, qazilərimizin canı-qanı bahasına söndürülsə də, közü hələ Laçın dəhlizindəki kəndlərdə, Xankəndi, Xocalıda, Əsgəranda, Ağdərə və Xocavənddədir. Separatçı və işğalçıların, eləcə də Rusiya hərbçilərinin torpaqlarımızdakı təxribatçı davranışlarına göz yummaq, hadisələri malalamaq olmaz. Əgər üzərindən keçsək, bir müddət sonra oxşar faciələr yenidən təkrarlanacaq".

**İsmayıl Qocayev**

Məlahət Rzayeva

"Elə şərait qurulmalıdır ki, vətəndaşlar velosipeddən alternativ nəqliyyat növü kimi istifadə edə bilsinlər"



# Bakıda vahid şəbəkə yaradılmalıdır

## Velosiped yolları bütün şəhəri əhatə etməlidir

**Azərbaycan qanunvericiliyinə "velosiped zolağı" və "velosiped yolu" anlayışları əlavə edilir. Bu, "Yol hərəkəti haqqında" qanuna dəyişiklik layihəsində əksini tapıb. Layihə Milli Məclisdə müzakirəyə çıxarılıb. Millət vəkilləri velosiped yolunun çəkilməsini müsbət qarşılayıblar.**

Hətta millət vəkili Razi Nurullayev "belə yol olsa, işə velosipedlə gedib-gələrəm" deyib. Qanuna dəyişiklikdə nələr nəzərdə tutulur? Belə bir qeyd var: velosiped zolağı yolun hərəkət hissəsinin velosipedlərin hərəkəti üçün nəzərdə tutulmuş, uzununa nişanlanma xətti ilə ayrılmış hissəsidir. Vəssalam. Elə bu?!.

Xatırladaq ki, ötən il Bakı Nəqliyyat Agentliyi Bakı şəhərində velosiped nəqliyyatının təşviqi, bununla bağlı infrastrukturun qurulması istiqamətində tədbirlər planı hazırlandığını bildirmişdi. Agentliyin məlumatında qeyd olunurdu ki, şəhərin mərkəzi küçə və prospektlərini, eləcə də Bulvar ərazisini əhatə edən 7,5 kilometr uzunluğunda velosiped yolunun inşasına başlanılıb (13 noyabr 2021-ci il). Hər iki istiqamətdə eni 1,5 metr olan yol mövcud norma və standartlara uyğun qurulur. Plana əsasən velosiped infrastrukturunun qurulması şəhər mərkəzi və ətraf əraziləri əhatə edəcəkdir ki, bu da gələcəkdə velosiped yol şəbəkəsini formalaşdıracaq. Velosiped zolaqlarının və dayanacaqlarının yaradılması məsələsi "Azərbaycan Respublikasında yol hərəkəti təhlükəsizliyinə dair 2019-2023-cü illər üçün Dövlət Proqramı"nda və Bakı şəhərinin Baş Planında da əksini tapıb. Velosiped nəqliyyatının sağlam həyatın formalaşdırılması, eləcə də şəhərin ekoloji mühitinə faydalılığını nəzərə alaraq, Bakı Nəqliyyat Agentliyi Ətraf mühitin mühafizəsi naminə beynəlxalq dialoq İctimai Birliyi - IDEA ilə bu istiqamətdə sıx əməkdaşlıq edir. Velosiped infrastrukturunun iki istiqamətdə qurulması nəzərdə tutulub. Birincisi, yol infrastrukturunun imkan verdiyi ərazilərdə təhlükəsizlik nəzərə alınmaqla və daha az vaxt sərf edilməklə müvafiq nişan və üfüqi nişanlama xətləri vasitəsilə. İkincisi isə digər ərazilərdə tikinti-quraşdırma işləri aparılmaqla. Bilgəh Kardioloji Sanatoriyasını və digər müalicə-istirahət mərkəzlərini bir-biri ilə əlaqələndirən 2 km velosiped yolu təşkil edilib artıq. Şəhərin Baş Planına əsasən 2027-ci ilə qədər Bakıda 63,5 kilometr uzunluğunda, 2040-cı ildə isə paytaxtda 251 kilometr uzunluğunda velosiped yolunun çəkilməsi planlaşdırılır.





Ekspert rəyinə keçməzdən əvvəl velosiped yolu ilə bağlı 2 fotonu diqqət mərkəzinə aldıq. Fotolardan biri, yəqin ki, Bakı şəhərinə aiddir, çünki "velosiped zolağı" və "velosiped yolu" haqqında məlumatla birgə dərc olunub. Doğrusu, fotodakı küçənin şəhərin hansı istiqamətində olduğunu ayırd edə bilmədik. İkinci foto isə Tbilisi şəhərindəndir. Hər iki fotoda velosiped yolu əks olunub. "Bakıya" aid olan fotoda velosiped yolunun sonda piyadalara "lütf edilən" səkiyə dirəndiyi və piyadalarla eyni yolu paylaşdığı və paylaşacağı görünür. Çünki başqa yol yoxdur daha. Tbilisiyə aid olan fotoda isə velosiped yolunun yolun hərəkət hissəsinin bir qismini tutduğu və piyadalara mane olmadığı görünür. Velosiped yollarının hamısı belə çəkiləcəksə, görəcək günlərimiz var, demək.

**"İnsan yönümlü şəhərlər" layihəsinin təsisçisi, bloger-urbanist Anar Əliyev "Şərq"ə açıqlamasında velosiped yollarının təşkili qaydalarından danışdı:**

- Dünyanın bir sıra şəhərlərində yol hərəkətinin təşkili "Vision Zero" konsepsiyası əsasında qurulur. Bu konsepsiyanın arxasında yol qəzaları qurbanlarının sıfıra endirilməsi prinsipi dayanır, eyni zamanda daha rahat, sağlam və təhlükəsiz yol hərəkətini özündə ehtiva edir. İctimai nəqliyyat, avtomobil yolları, piyadaların təhlükəsizliyi, o cümlədən velosiped yollarının da daha rahat və təhlükəsiz qurulması konsepsiyada əksini tapır. Konkret velosiped yolları ilə bağlı bu konsepsiyada yanaşma budur ki, əgər yolda sürət həddi 50 km/s-dan çox deyilsə və hərəkət zolaqlarının da sayı azdırsa, bu halda velosipedlər üçün nəzərdə tutulan ayrıca zolaq yolun hərəkət hissəsi ilə yanbayan təşkil oluna bilər. Avtomobillərlə velosipedlər eyni zamanda, yanaşı hərəkət edə biləcək. Təbii ki, hər biri özünə aid zolaqla. Yox əgər yolda sürət həddi 50-dən çoxdursa və hərəkət zolaqlarının da sayı çoxdursa, bu zaman velosipedlər üçün hərəkət zolağını yolun hərəkət hissəsindən fiziki maneə ilə ayrılan bir hissəsində və yaxud şərait imkan verirsə səkidə təşkil etmək lazımdır. Bu, təhlükəni minimuma endirəcək. Sürət həddi yüksək olan, bir neçə hərəkət zolaqlı magistral yollarda velosipedlərin avtomobillərlə yanaşı hərəkəti təhlükəlidir.

**A.Əliyev məsələ ilə bağlı Bakı Nəqliyyat Agentliyinə də müraciət etdiyini bildirib:**

- Biz BNA-ya müraciət etmişdik ki, Xəqani və Nizami küçələrinin avtomobillər üçün nəzərdə tutulan hərəkət zolaqları həddindən artıq genişdir, parkinq isə xaotik şəkildə təşkil olunub. Səkilər də bir o qədər geniş deyil. Təklif etdik ki, həmin küçələrdə avtomobil hərəkəti ikitərəfli edilsin, velosiped və parkinq zolaqları yanbayan təşkil olunsun. Bizə bildirdilər ki, həmin küçədə velozolaqlar yolun hərəkət hissəsində təşkil olunacaq. Çox güman ki, şəhərin digər mərkəzi küçələrində də yanaşma belə olacaq.

Başqa bir problem küçədənkənar piyada keçidlərindədir. Məlumdur ki, paytaxtda yeraltı və yerüstü keçidlərin sayı kifayət qədər çoxdur. Bunlar da velosipedlərin hərəkətinə mane olacaq. Velosiped sürən bu cür keçidlərdə əziyyət çəkəcək, çünki gərək velosipedini qucağına alsın. İnkişaf etmiş digər şəhərlərdə belə keçidləri eynisəviyyəli "zebra" keçidləri ilə əvəz edirlər və velosipedlərin maneəsiz hərəkəti üçün də xüsusi velokeçidlər təşkil olunur.

**A.Əliyev Bakıda salınacaq velosiped yollarının uzunluğu məsələsinə də toxundu:**

- Avropada, o cümlədən Türkiyədə velosiped yollarının uzunluğu min kilometrlərlə ölçülür. Bakıda hələ də 7,5 kilometrlik velosiped yolunun təşkilinə yeni başlanılıb. Elan edilib ki, 2027-ci ilə qədər Bakıda 63,5 kilometr uzunluğunda, 2040-cı ildə isə paytaxtda 251 kilometr uzunluğunda velosiped yolunun çəkilməsi planlaşdırılır. Bu templər bir o qədər də ürəkaçan deyil. Müqayisə üçün Ukraynanın paytaxtı Kiyev şəhərində 2021-ci ildə 80 km velosiped yolları çəkilib, 2022-ci ildə isə daha 100 km təşkil edilməsi planlaşdırılır.

Velosiped yolları bütün şəhəri əhatə etməli, vahid şəbəkə yaratmalıdır ki, vətəndaşlar onlardan bir nəqliyyat vasitəsi kimi istifadə edə bilsin. Velosiped və elektroskuterlər kimi alternativ mobillik üsulları şəxsi nəqliyyat vasitələrinin istifadəsini də azaldacaq, bu da dolayısı ilə tıxacların azalmasına gətirib çıxaracaq.

# Britaniya reseptinin üç bucağı

## London-Bakı-Ankara üçbucağı güclənəcək



**Xarici işlər naziri Ceyhun Bayramovla Böyük Britaniyanın Avropa məsələləri üzrə dövlət naziri Kris Hiton-Harris arasında telefon danışığı olub.**

Tərəflər Azərbaycan ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı arasında çoxtərəfli əməkdaşlıq münasibətlərinin uğurlu inkişafı ətrafında fikir mübadiləsi aparıblar. Eyni zamanda regional təhlükəsizlik məsələləri, üçtərəfli bəyanatların icrası ilə bağlı məsələlər müzakirə olunub. Nazirlər cari ildə iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinin qeyd olunacağını diqqətə çatdırıblar. Tərəflər bu xüsusda qarşılıqlı səfərlərin həyata keçirilməsinin vacibliyini vurğulayıblar.

**Siyasi şərhçi Aqşin Kərimov hazırkı Böyük Britaniya-Azərbaycan münasibətlərindən "Şərq"ə danışarkən bildirib ki, indi Britaniya keçmişə söykənən imperialist siyasi ənənələrini modifikasiya edərək müasir dünya nizamına uyğun yeni addımlar atır:**

"Britaniya həmişə pərdə arxasından siyasət yürütməyə üstünlük verib. Bir neçə tarixi fakta göz atmaqla Londonun beynəlxalq sistemdəki həlledici rolu haqqında daha aydın təsəvvürlər yarada bilərik. Belə ki, o, İkinci Dünya müharibəsinin faşizm üzərində qələbəsini sürətləndirib. Məsələn, "Enigma" şifrəqıran aparatı ilə faşistlərin danışıqlarının, planlarının məzmunundan xəbər tuta bilib. Kuba böhranı ərəfəsində SSRİ-nin məxfi seyflərinə əli çataraq xeyli sənədə çıxış əldə edib və bu barədə ABŞ-ı məlumatlandırıb. SSRİ-nin dağılmasına rəvac verən nöqtələrdən birində - Şərqi Almaniyada güclü agentura şəbəkəsi qurub".

***Aqşin Kərimov: "Yaxın zamanlarda Britaniyanın təşəbbüsü ilə Ermənistanın hansısa güzəştə gedəcəyinə şahidlik edə bilərik"***

*A.Kərimovun fikrincə, indi Britaniya harada bir güc formalaşsa, onunla əməkdaşlığı dərinləşdirməyə can atır:*

"Nəzərə alaq ki, Britaniya Avropa qitəsində Rusiyaya dirəniş göstərə bilən həlledici gücdür. İndi Britaniya Avropadan Asiyaya qədər uzanan coğrafiyada yeni güc kimi səhnəyə çıxan qüvvələrlə əməkdaşlığı dərinləşdirməyə can atır. Bu mənada Cənubi Qafqazda yaranan yeni reallıqda Azərbaycan və Türkiyə ilə də münasibətləri yenidən nəzərdən keçirir. Britaniya ilə Azərbaycanın prioritetləri üst-üstə düşür, Azərbaycanın Britaniyadakı səfiri Elin Süleymanov bir neçə ay öncə bu barədə danışmışdı. Bu o deməkdir ki, Britaniya Azərbaycan-Türkiyə müttəfiqliyinə beynəlxalq stimul verən dövlətə çevrilir, London siyasi mətbəxinin məhsulu olan bəyanatlar da belə deməyə əsas verir".

**Siyasi şərhçi Ceyhun Bayramovun britaniyalı nazirlə danışığından bir neçə gün öncə Birtaniyanın Azərbaycandakı səfiri Ceyms Şarpın dediklərinə diqqət çəkib:**

"Səfir deyib ki, ölkəsi Azərbaycanın ATƏT-in Təhlükəsizlik üzrə Əməkdaşlıq Forumundakı fəaliyyətini dəstəkləyir. ATƏT-in hərbi-siyasi, iqtisadi və ekoloji və insani aspektləri əhatə edən təhlükəsizliyə hərtərəfli yanaşması var. Azərbaycan isə təhlükəsizliyin bütün sahələrinə dair qətiyyətli mövqeyə sahibdir - enerji təhlükəsizliyindən tutmuş, sabitliyə qədər".

**Analitikə görə, Britaniya Azərbaycanın sədrliyi dövrü üçün öz reseptlərini Bakıya təqdim edib və bu, London-Bakı-Ankara üçbucağını gücləndirəcək:**

"Yaxın zamanlarda Britaniyanın təşəbbüsü ilə Ermənistanın hansısa güzəştə gedəcəyinə şahidlik edə bilərik. Britaniya ATƏT vasitəsilə öz maraqlarını ön plana çıxarmaq istəyir və bu, Bakının prioritetlərinə uyğundur. Bu da öz növbəsində Ermənistan üzərində mütləq qələbəni təmin edən sülh modelinin yaranmasına gətirib çıxarır.

Eyni zamanda MDB məkanında cərəyan edən mənfi tendensiyaların Cənubi Qafqaza sıçramaması üçün möhkəm əsaslar yaradır".

**Günəş Mərd**



# NATO dövlətlərinin bəziləri hərbi əməliyyatların əleyhinədir

## Fikir ayrılıqlarına baxmayaraq, Qərb koalisiyası Rusiyaya qarşı güclüdür

**NATO-nun baş katibi Yens Stoltenberq qurum üzvləri arasında fikir ayrılıqlarının olduğunu etiraf edib. Bununla belə, alyans üzvlərinin birlik nümayiş etdirməyə çalışdıqlarını deyib.**

Qeyd edib ki, NATO Atlantikanın hər iki tərəfində yerləşən 30 dövləti birləşdirən ittifaqıdır: "Əlbəttə, bir çox məsələlərdə fikir ayrılıqları müşahidə olunur. Təşkilat yaranandan daxildə ziddiyyətlər olub. 1956-cı ildə Süveyş böhranı yaşanıb. 1960-cı illərdə Fransa alyansı tərk etmək istəyib. 2003-cü il İraq əməliyyatları zamanı etirazlar baş verib. Lakin qurumun gücü birlikdədir. Biz hər zaman eyni məqsədlərimiz ətrafında birləşməyi bacarmışıq". Xatırladaq ki, ötən gün Ukrayna Prezidenti Vladimir Zelenski də ABŞ-ın mövqeyindən narazılıq ifadə etmişdi. O, Ağ Evin "müharibə başlayır" anonslarının ölkə iqtisadiyyatına ziyan vurduğunu, cəmiyyətdə panika yaratdığını demişdi.

**Politoloq Məhəmməd Əsədullazadə "Şərq"ə bildirib ki, NATO ölkələri arasındakı fikir ayrılıqlarının qaynağı Rusiyaya münasibətdir. Ekspert bildirib ki, Almaniya və Fransa Rusiyaya qarşı ciddi hərbi əməliyyatların əleyhinədir:** "Baltikyanı ölkələr, o cümlədən Polşa isə Moskvaya qarşı daha sərt mövqe nümayiş etidirilməsinin lehinədir. ABŞ da Kremlə ağır sanksiyalar tətbiq edilməsinin tərəfdarıdır. Zelenskinin söylədiklərində müəyyən həqiqətlər var. Hər an müharibənin başlama ehtimalı əhali arasında xof yaradır. Təbii olaraq əsas zərbə iqtisadiyyata dəyir. Fikir ayrılıqlarına baxmayaraq, Qərb koalisiyası Rusiyaya qarşı güclüdür. Müəyyən ziddiyyətli açıqlamalar qurumun zəifləməsi kimi dəyərləndirilə bilməz. Sadəcə olaraq Böyük Britaniya kimi Fransa və Almaniyanın öz maraqları var. Bu ölkələr prosesi öz maraqlarına uyğun qurmağa çalışırlar. Qurum daxilindəki parçalanma meyillərinin səbəbi budur. Baş katibin niyyəti odur ki, qurum üzvlərinin hamısının diqqətini Rusiyaya yönəltsin. Daha doğrusu, əksər üzvlərin Moskvaya qarşı çıxmasına nail olsun".

**İsmayıl**




# Ermənistana yeni prezident hazırlanır

## Xaçaturyan Paşinyana planlarını həyata keçirməkdə yardımçı olacaq

**Ermənistanda iqtidardakı Vətəndaş Müqaviləsi Partiyası ölkə prezidentliyinə Yüksək texnologiyalar sənayesi naziri Vahanq Xaçaturyanın namizədliyini irəli sürüb. Bunu parlamentin sədri Alen Simonyan jurnalistlərə bildirib.**

Prezident Armen Sarkisyanın istefasından sonra dövlət başçısını müvəqqəti əvəz edən spiker qeyd edib ki, iqtidar partiyasında bir neçə nəfərin namizədliyi müzakirə olunduqdan sonra V.Xaçaturyanla bağlı razılığa gəlinib. Xatırladaq ki, A.Sarkisyanın 23 yanvar tarixində verdiyi istefa ərizəsi Alen Simonyan tərəfindən bu gün imzalanıb.

**Ermənistandakı son siyasi mənzərəni şərh edən sabiq dövlət müşaviri, politoloq Qabil Hüseynli "Şərq"ə bildirib ki, V.Xaçaturyan Nikol Paşinyanın "əlini gücləndirəcək":**

"Yeni namizəd V.Xaçaturyan Nikol Paşinyanla eyni partiyadandır. Üstəlik, namizədin baş nazirə çox yaxın adam olduğu bildirilir. Həm də bu şəxsin Levon Ter-Petrosyanın dövründə Nikol Paşinyanla birlikdə birinci prezidentlə müəyyən əlaqələri olub. Həmçinin, Xaçaturyan alimdir, yüksək texnologiyalar sahəsində mütəxəssis hesab olunur. İndiyə qədər bu sahədə nazir kimi fəaliyyət göstərirdi. Zənnimcə, keçmiş prezident Armen Sarkisyan qədər "Qarabağ klanı"na yaxın, revanşist əhval-ruhiyyə ilə yaşayan, sülh yaratmaq prosesini pozmağa çalışan mövqe sərgiləməyəcək. Baş nazir Nikol Paşinyanla komanda prinsipinə uyğun olaraq çalışacaq".

**Politoloq hesab edir ki, yeni namizəd Nikol Paşinyanla "çəkici eyni masaya vuracaq":**

"Baş nazir ilə Armen Sarkisyan arasında bir çox məsələlərdə, xüsusilə Müdafiə Nazirliyi sisteminə kadr dəyişiklikləri ilə bağlı məsələlərdə qarşıdurmalar yaranırdı. N.Paşinyanın bəzi təqtimatları prezident tərəfindən təsdiq edilmirdi. Amma indi, məncə, belə problemlər olmayacaq. Güman edirəm ki, onların hər ikisi çəkici eyni masaya vurmağa çalışacaqlar. Bu həm Nikol Paşinyanın hakimiyyətini gücləndirəcək, həm də sülh danışıqlarında, rəhbərlikdə vahid mövqeyin formalaşmasına xidmət edəcək".

**Çimnaz Şahlar**

# Dünyada böyük siyasi oyunlar gedir

## Rusiya parçalanarsa, 25 yeni respublika yaranacaq

**"ABŞ və Avropa dövlətləri dünyanın siyasi xəritəsini dəyişməyə çalışırlar". Bu barədə "Şərq"ə siyasi elmlər doktoru, politoloq Cümşüd Nuriyev bildirib. O qeyd edib ki, Rusiya hazırda özünü yeni güc mərkəzi kimi təqdim etməyə çalışır:**

"Lakin iqtisadi, siyasi problemlərdən dolayı bunu bacarmır. Əvvəllər yalnız ABŞ qütbü var idi. İndi isə Avropa, Çin qütbü də formalaşır. Rusiya da çalışır ki, yeni qütb yaratsın. Lakin Rusiyada general Sobolevin rəhbərliyi ilə hərbi elita Putinə qarşı çıxır. Onlar araşdırma aparıblar ki, Putinin dövründə ölkədən hər il 1 trilyon rubl çıxarılıb. Bu qədər pulun yoxa çıxmağı göstərir ki, Rusiyada korrupsiya geniş vüsət alıb. Ölkədən çıxarılan vəsaitlərin geri qaytarılması məsələsi gündəmə gələ bilər. Bu da Putinə sərf etmir. Ona görə də diqqəti müharibəyə yönəltməyə çalışır.

Həmçinin Ukraynada da ciddi sosial problemlər var. Qarşıdan prezident seçkiləri gəlir. Zelenskiyə seçkiləri qazanmaq üçün müharibə variantı sərf edir. Avropa İttifaqı, Polşa və Rumıniyaya isə iki slavyan dövlət arasındakı müharibədən siyasi nüfuz qazanmaları maraqlıdır. ABŞ-ın da öz maraqları var.

Vaşinqton Çin-Rusiya birliyinə qarşı Ukraynaya dəstək verir. Lakin müharibə başlasa, onlar heç vaxt kömək etməyəcəklər. ABŞ-ın tarixinə nəzərən bunu əminliklə söyləyirik. İki dövlətin zəifləməsi Amerika ilə yanaşı, İngiltərənin də marağındadır. İngilislər Avrasiya materikinin ürəyini - Ukrayna ilə Rusiyanı götürmək istəyir".



**C.Nuriyev hesab edir ki, qərblilər dünyanın düzənini dəyişdirmək istəyirlər:**

"Yeni siyasi konfiqurasiya formalaşdırmaq niyyətindədirlər. Rusiya parçalanarsa, 25 yeni respublika yaranacaq. Onlar kiçik dövlətlərin yaranmasına çalışırlar. Dünyada böyük siyasi oyun gedir. Gah müharibə məsələsi gündəmə gəlir, gah da müharibənin olmayacağına əminlik artır".

**Xanlar Əlibəy**

# Kreml məqsədli siyasət yürüdür

## Rusiyanın yeni vətəndaşlıq qanunu Azərbaycana ciddi siqnaldır

**Rusiya Prezidenti Vladimir Putin Rusiya vətəndaşlığı sahəsində münasibətləri tənzimləyən qanun layihəsini Dövlət Dumasına təqdim edib. Sənədin mətni Dumanın elektron bazasında yayımlanıb. Rusiya Federasiyası hökuməti vətəndaşlıq haqqında prezidentin qanun layihəsini dəstəkləyib.**




***"Xankəndi və erməni separatçılarının nəzarəti altında qalan yanaşı bölgələrdə yaşayan erməniləri rus icmasına daxil edib onlara Rusiya vətəndaşlığı verə bilərlər"***

"Sputnik Azərbaycan" xəbər verir ki, bu barədə Rusiya Dövlət Dumasının elektron məlumat bazasında dərc olunmuş təşəbbüsə Nazirlər Kabinetinin cavabında deyilir. "Rusiya Federasiyası hökuməti qanun layihəsini dəstəkləyir", - deyə sənəddə bildirilir. Sənəd Rusiya vətəndaşlığına qəbul edildikdə 20-dən çox kateqoriyalı şəxslərə qoyulan tələblərin sayının azaldılmasını, habelə sadələşdirilmiş qəbul hüququ olan şəxslərin kateqoriyasını müəyyən etmək üçün dövlət başçısının səlahiyyətlərinin genişləndirilməsini nəzərdə tutur. Dumanın MDB, Avrasiya inteqrasiyası və həmvətənlərlə əlaqələr komitəsinin sədri Leonid Kalaşnikov bir müddət əvvəl bildirib ki, qanun layihəsi Dövlət Duması tərəfindən prioritet olaraq 2022-ci ilin əvvəlində nəzərdən keçiriləcək. Bu federal qanun Rusiya Federasiyasının vətəndaşlığı sahəsində münasibətləri, o cümlədən Rusiya Federasiyası vətəndaşlığının əldə edilməsi və ona xitam verilməsinin əsaslarını, şərtlərini və qaydalarını müəyyən edir.

Vətəndaşlığa sadələşdirilmiş qaydada qəbul proseduru 20 kateqoriyadan olan şəxslərə şamil ediləcək. Onların arasında: Həmvətənlər (keçmiş SSRİ vətəndaşları və onların uşaqları, könüllü köçürmə proqramının iştirakçıları); Rusiyada yaxın qohumları olan vətəndaşlar; Rusiya imperiyası təəbələrinin nəslindən olanlar və Sovet İttifaqı vətəndaşları. Rusiya vətəndaşlığını sadələşdirilmiş qaydada əldə etmək hüququ olan şəxslərin kateqoriyasına Belarus, Ukrayna, Moldova və Qazaxıstan vətəndaşları daxildir. Prezident isə istisna hal kimi Rusiya vətəndaşlığını Böyük Vətən müharibəsi veteranlarına, Rusiyaya xüsusi xidmət göstərənlərə, peşəsinə və ya ixtisasına görə Rusiyanı maraqlandıran şəxslərə. Sərmayədarlar və ixtisaslaşmış mütəxəssislər isə sadələşdirilmiş qaydada Rusiya vətəndaşlığının alınması üçün müraciət edə biləcək şəxslərin kateqoriyasına daxil edilmir. Rusiya vətəndaşı ilə bağlanmış nikah meyarına əsasən sadələşdirilmiş Rusiya vətəndaşlığının əldə edilməsi yalnız həmin nikahdan uşaq doğulduğu halda mümkün olacaq. RF vətəndaşlığına xitam verilməsi qaydalarına da dəyişiklik edilib. Rusiya vətəndaşlığına xitam verilməsi institutu da tətbiq edilir və belə cəzanın veriləcəyi cinayətlərin siyahısı genişləndirilir. Məsələn, Rusiya Federasiyasının Prezidenti yaşayış yerindən asılı olmayaraq xarici vətəndaşların himayəsində olan və ya onlar tərəfindən övladlığa götürülmüş uşaqların Rusiya Federasiyasının vətəndaşlığına xitam verilməsi haqqında qərarlar qəbul edir. Valideynlərinin (övladlığa götürənlərin) təşəbbüsü ilə Rusiya vətəndaşlığına xitam verilmiş bütün şəxslərin 18 yaşına çatdıqdan sonra beş il ərzində Rusiya vətəndaşlığını sadələşdirilmiş qaydada əldə etmək hüququ var. Xitamla bağlı digər şərtlər də mövcuddur. Bizi maraqlandıransa Rusiya vətəndaşlığına qəbulun hansı səbəblərdən sadələşdirilməsidir. Səbəblər, əslində məlumdur. Qalır, sadələşdirmənin hansı məqsəd daşıması.

**Rusiyanın vətəndaşlığa qəbulla bağlı sadələşdirilmiş qaydalar tətbiq etməsi siyasətini "Şərq"ə şərh edən AĞ Partiya sədrinin müavini Əhəd Məmmədli sözügedən ölkənin buna ehtiyacı olduğunu dedi:**

- Rusiyanın buna həm sosial ehtiyacı var, həm də burada gələcəyə hesablanmış siyasi məqsəd güdülür. Rusiya artıq uzun illərdir demoqrafik problemlə üz-üzədir. Nəsil artımı gərəkən səviyyədə deyil. Rusiyaya gənc, cavan qan, yeni nəsil - yeni qüvvələr lazımdır. Ona görə də vətəndaşlığa qəbulu sadələşdirməklə yeni nəsil əldə etməyə çalışırlar. Daha böyük məqsədsə məhz siyasidir. Siyasi məqsəd budur ki, Rusiya postsovet məkanında təsir dairəsini daim artırmağa çalışır. Bir qanunla iki məqsədə çatmağı planlaşdırır. Rusiya Prezidenti Vladimir Putin əvvəllər də belə ifadə səsləndirib ki, keçmiş SSRİ məkanında yaşayanlar Rusiya vətəndaşı ola bilər. İndi isə bunun üçün hüquqi baza yaradırlar. Bununla keçmiş SSRİ respublikalarına geniş imkanlar yaradırlar ki, vətəndaşlar Rusiyaya gəlsin, vətəndaşlıq alıb bu ölkədə daimi məskunlaşsınlar. Hazırda digər dövlətlərdən, o cümlədən Azərbaycanda da Rusiyanın müxtəlif şəhərlərində yaşayan, işləyən, qazanc əldə edən minlərlə vətəndaş var. Onlara vətəndaşlıq almaq imkanı yaratmaqla Rusiya dövləti həm təəbələrinin sayını artırır, həm də lazım gəldikdə onlardan siyasi məqsədlər üçün istifadə etməyi, onların vasitəsilə həmin ölkələr daxilində siyasi planlarını həyata keçirməyi, ölkə daxilində möhkəmlənmək məqsədi güdür. Vətəndaşlıq əldə etməyin sadələşdirilməsi Rusiyada müvəqqəti yaşayıb işləyənlər üçün sərfəlidir, bizim üçün - Azərbaycan üçünsə yox.

**Ə.Məmmədli qanun layihəsində Belarus, Ukrayna, Moldova və Qazaxıstanın adının xüsusi vurğulanmasına da toxundu:**

- Birincisi, bu dövlətlər Avrasiya İttifaqının üzvüdür. Belarus, ikinci rus dövləti hesab edilir. Bilirsiniz ki, belaruslarla ruslar eyni kökdəndir. Digər 2 dövlətdə isə Rusiya münaqişə alovu qalayıb; Moldovada Dnestryanı bölgə, Ukraynada Krım, Donbass problemi. Qazaxıstanda da etnik ruslar yaşayır. Bu qanun layihəsi Azərbaycana ciddi bir siqnaldır. Məlumdur ki, Qarabağda rus icmasının yaradılması məsələsi qaldırılır. Xankəndi və erməni separatçılarının nəzarəti altında qalan yanaşı bölgələrdə yaşayan erməniləri rus icmasına daxil edib onlara Rusiya vətəndaşlığı verəcəklər, sonra da ermənilər qalxıb deyəcək ki, "Rusiyaya birləşirik". Bundan sonra Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanıdığını 100 desin, nə xeyri?!. Azərbaycan tamamilə haqlı şəkildə güc tətbiq etsə, Rusiya bunu öz vətəndaşlarına təhlükə hesab edəcək. Qısa vaxtda Azərbaycan Xankəndi problemini həll etməsə, Rusiya başımıza bu müsibəti açacaq. Azərbaycan hökuməti həmçinin sosial-iqtisadi vəziyyətin normallaşmasına da çalışmalıdır ki, soydaşlarımız Rusiya bazarlarından hazırkı dərəcədə asılı olmasın. Vətəndaşlıq almaq məcburiyyətində də qalmasınlar.

**Məlahət Rzayeva**

# Qalib gənckliklə qürur duyuruq

## Onlar dövlət idarəçiliyi, iqtisadiyyat, mədəniyyət, idman və digər sahələrdə uğurla çalışırlar

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi;**



**Dünən Azərbaycanda Gənclər Günü qeyd olundu. Azərbaycanın gənclər siyasəti dünya miqyasında bir nümunəyə çevrilib. Ölkəmizdə gənc nəslin problemlərinin həlli, onların cəmiyyət həyatında layiqli təbəqə kimi iştirakının təmin olunması üçün həyata keçirilən bütün zəruri tədbirlər Azərbaycan gəncliyini daha işıqlı sabaha aparır. Bu yolda gənclərimizin ən böyük himayəçisi və dəstəkçisi məhz Azərbaycan Prezidenti İlham Əliyevdir.**

Dövlət başçısının "Mənim gənclərə xüsusi münasibətim var, mənim ürəyim sizinlədir. Siz bütün işlərdə mənə arxalana bilərsiniz. Mən də sizə arxalanıram" - sözləri Azərbaycan dövlətinin gənclərə etimadının, gənclərin isə Prezidentə məhəbbətinin və dəstəyinin bariz nümunəsidir. Ölkə rəhbəri Gənclər Günü ilə bağlı tvitterdə yazdığı təbrik mesajında gənclərə inandığını deyib: "Azərbaycan gəncləri fəaldır, vətənpərvərdir, biliklidir, savadlıdırlar. Gənclər, mən sizə inanıram, güvənirəm".

Gənclər Günü 1997-ci ildə Prezident Heydər Əliyevin sərəncamı ilə təsdiq edilib. Ulu Öndərin gənclərə ən böyük hədiyyəsi olan bu günün təsis edilməsinin 25 illiyi ölkəmizdə yüksək səviyyədə qeyd olundu. Gənclər Günü MDB məkanında və Şərqi Avropa ölkələri arasında ilk dəfə olaraq Azərbaycanda təntənəli şəkildə qeyd edilməyə başlanıb. Bir çox sahədə olduğu kimi, bu sahədə də Azərbaycan bir çox ölkələri qabaqlayıb. Ümummilli lider gənclər sahəsində dövlət siyasətinin uğurla həyata keçirilməsi məqsədilə bütün dünyaya nümunə olacaq daha bir addım atıb. Bu sahənin zəruri qanunvericilik bazasının formalaşdırılmasını təmin edib. Gənclərin sosial, iqtisadi və s. problemlərinin həllinə yönələn, onların öz qabiliyyətlərini inkişaf etdirmələrinə kömək edən fərman və sərəncamlar, dövlət proqramları bu qəbildəndir. Qanunlar, fərman, sərəncamlar gənc nəslin mütəşəkkil qüvvə kimi formalaşmasına, onların mənəvi-ideoloji cəhətdən tam yetkinləşməsinə, sosial problemlərinin həllinə, faydalı məşğulluğunun təmin olunmasına son dərəcə müsbət təsir göstərib. Bu gün ölkəmizdə gənclər siyasəti mahiyyət və keyfiyyətcə yeni mərhələsini yaşayır. Prezident İlham Əliyev gənclər siyasətinə sadiqliyini öz qərarları ilə təsdiq edir. Gənclərin mənəvi inkişafı, vətənpərvərlik tərbiyəsi, xarici ölkələrdə təhsili, sosial müdafiəyə ehtiyacı olanların problemlərinin həlli istiqamətində görülən işlər, gənclər təşkilatlarının formalaşması və inkişafı üçün yaradılan şərait və imkan bu sahəyə böyük diqqətin nəticəsidir.

Gənclərlə bağlı bütün məsələlərin geniş əhatə olunduğu mühüm sənədlərin məqsədi Azərbaycanda gənclər siyasətinin daha səmərəli həyata keçirilməsinə nail olmaq, cəmiyyətin bütün sahələrində gənclərin fəal iştirakına şərait yaratmaqdır. Həmçinin, onların yaradıcı və innovativ potensialı- sadi, ictimai-siyasi və mədəni həyatında fəal iştirakını təmin etmək məqsədilə sərəncamlar imzalayıb.

Azərbaycanın gənclər siyasətində idmanın inkişaf etdirilməsi və onun kütləviliyinin artırılmasına da xüsusi diqqət yetirilir. Beynəlxalq yarışlarda qələbə qazanan gənc idmançıların layiqincə qiymətləndirilməsi onların yeni uğurlarında mühüm rol oynayır. Ölkəmizdə gənc nəslin problemlərinin həlli, onların cəmiyyət həyatında layiqli təbəqə kimi iştirakının təmin olunması, milli adət-ənənələrə, saf dəyərlərə bağlılığı üçün dövlət səviyyəsində bütün zəruri tədbirlər həyata keçirilir. Azərbaycan gəncliyi bu diqqət və qayğını yüksək dəyərləndirməklə yanaşı, öz məsuliyyətini dərk edir. Prezident İlham Əliyevin müəyyənləşdirdiyi strateji vəzifələrin uğurla həyata keçirilməsinə, respublikamızın dinamik inkişaf edən qüdrətli dövlətə çevrilməsi prosesinə öz töhfəsini verməyə çalışır. Müasir dövrdə elmin və texnologiyanın sürətli inkişafı, post-neft dövrünün başlanması Azərbaycan dövlətinin də gənclərlə bağlı zamanın tələblərinə uyğun siyasət yürütməsini zəruri edib. Bu zərurəti nəzərə alan dövlətimizin başçısı gənclərin intellektual, fiziki və mənəvi inkişafını, ölkənin sosial-iqtinın üzə çıxarılmasını dəstəkləmək, gənc nəslin sağlamlığını qorumaq, gənclərin təhsil və məşğulluq məsələlərinə diqqəti artırmaq, ölkədə könüllülük hərəkatını inkişaf etdirməkdir. Tam inamla demək olar ki, ölkəmizdə gənc nəslin problemlərinin həlli, onların cəmiyyət həyatında layiqli təbəqə kimi iştirakının təmin olunması üçün həyata keçirilən bütün zəruri tədbirlər Azərbaycan gəncliyini daha işıqlı sabaha aparacaq. Sevindirici haldır ki, gənclərimiz ölkə həyatının bütün sahələrində fəal iştirak etməklə mühüm proseslərdə rol oynayırlar.

**Milli Məclisin Gənclər və idman komitəsinin sədri Adil Əliyev deyib ki, Prezidentin diqqəti nəticəsində Azərbaycan gəncliyinin özünə inamı artıb. Komitə sədri vurğulayıb ki, ötən 25 il ərzində Azərbaycanda gənclər sahəsində dövlət siyasəti kompleks şəkildə hazırlanıb və həyata keçirilib:** "Aparılmış həmin siyasət nəticəsində ölkəmizdə gənclərlə iş sahəsində ciddi keyfiyyət dəyişiklikləri əldə edilib. Gənclərin ictimai həyatda rolu önəmli dərəcədə artıb. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Vətən müharibəsinin əsas hərəkət qüvvəsi gənclər idi. Vətən müharibəsindəki Qələbə həm də gənclərlə bağlı 25 illik dövrün məntiqi yekunu idi. Vətən müharibəsində gənclərimizin yüksək fiziki və mənəvi hazırlığı və vətənpərvərlik hissi əməldə sübut olundu. Ancaq Qələbəmizdə gənclərlə bağlı dövlət siyasətinin rolu təkcə fiziki və mənəvi hazırlıq və vətənpərvərlik işi ilə məhdudlaşmır. Əlbəttə ki, Şuşanın işğaldan azad edilməsi onların vətənpərvərliyinin, yüksək mənəvi və fiziki hazırlığının parlaq nümayişi oldu. Həmçinin burada 21-ci əsrin müharibəsi kimi yüksək texnologiyalar və süni intellektə əsaslanan döyüş vasitələri mühüm rol oynadı. Həmin texnologiya və döyüş vasitələrinin düzgün idarə edilməsi yüksək peşəkarlıq və təhsil tələb edir. Digər tərəfdən isə yüksək təhsilli gənc nəslin yetişməsi Azərbaycan həqiqətlərinin, o cümlədən Qarabağ müharibəsi ilə bağlı mövqeyimizin dünyaya çatdırılması, habelə ölkəmizin beynəlxalq səviyyədə yumşaq gücünün formalaşması üçün zəruridir. Bu isə gənclərimizin yüksək intellektual və təhsil səviyyəsinə dəlalət edir".

**Yeni Azərbaycan Partiyası Səbail rayon təşkilatının əməkdaşı, gənc fəal Fuad Heydər bildirib ki, gənclər öz bayramlarını qalib ölkənin vətəndaşları kimi qürurla qeyd edirlər:** "Qürur duyuruq ki, 30 illik həsrətə Ali Baş Komandanımız, Prezident İlham Əliyevin "Dəmir yumruq" siyasəti, güclü ordumuzun igid əsgər və zabitlərinin gücü ilə 44 gün ərzində son qoyuldu. Dünyaya sübut etdik ki, Azərbaycan gəncləri hər şeyə qadirdir. Azərbaycan gəncləri yüksək intellektual bacarıqlara malik olan və ölkənin ictimai-siyasi həyatında aktiv şəkildə fəaliyyət göstərirlər. Dövlət idarəçiliyi, iqtisadiyyat, mədəniyyət, idman və digər sahələrdə uğurla çalışırlar. Ölkəmizi şərəflə və yüksək səviyyədə təmsil edirlər. Bir gənc olaraq qürurla demək olar ki, bu gün Azərbaycan gəncliyi üzərinə götürdüyü şərəfli vəzifələrin öhdəsindən layiqincə gəlməyi bacarır. Hər bir ölkənin gələcəyi onun gəncliyindən asılıdır. Gənclik gələcəyin özü, böyük güc, böyük arzular, böyük ümidlər və sağlam düşüncə deməkdir. Hər bir gənc bütün bunların dəyərini bilməli, ailəsi, vətəni və cəmiyyəti üçün önəmli şəxsiyyət olmağa çalışmalıdır".

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub





# Qadın mollaların əksəriyyəti cahildir

## "İnsanlar yasa "ştatlı", "attestasiyadan keçmiş" molla gətirim, başda oturub məclis aparsın" anlayışından xilas olmalıdır"

**Millət vəkili Məlahət İbrahimqızı Azərbaycanda yas mərasimlərindəki qadın mollaların əksəriyyətinin cahil vəziyyətdə olduğunu söyləyib. Parlament üzvü deyib ki, Mənəvi Dəyərlərin Təbliği Fondunda olarkən Hacı Salman (QMİ sədrinin müavini - red) da bu məsələni gündəmə gətirib. Deputat vurğulayıb ki, qadın mollalar şeirdən, muğamdan mərsiyəyə tutmuş hər şey deyirlər.**

Amma Qurandan, hədisdən ağıllı bir söz demirlər: "Hacı Salman dedi ki, buna nə Qafqaz Müsəlmanları İdarəsi, nə də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi heç nə edə bilmir, bu məsələ qanunla tənzimlənməlidir. Ona görə də həmkarlarımı bu məsələnin qanunla tənzimlənməsinə dəstək verməyə çağırıram".

**Tanınmış jurnalist, dini yazar Kənan Rövşənoğlu deyib ki, hər bir mövzuda əsas problem ad və ya anlayışlardan başlayır. Yazarın sözlərinə görə, hər bir məsələnin, problemin adı dəqiq olmalıdır:** "İslam dinində "məclis mollası" deyilən anlayış və ya iş yoxdur. "Din xadimi" anlayışı da olmayıb. Amma zamanla din biliciləri tədricən məscidlərdə namaz və digər dini vəzifələri icra etmək üçün sənədləşdirilib. Yəni bu, bir növ dövlət işi olub, din işi deyil. Din üçün işi bilən istənilən insan dini vəzifələri, namaz qıldırmaq, o cümlədən meyit basdırmaq, bayram namazı qıldırmaq və s. yerinə yetirə bilər. Amma dövlətlər üçün bu işləri yerinə yetirənlər "siyahıya alınmalı, cavabdehlik daşımalıdır" deyə zamanla bu anlayış meydana çıxıb. "Məclis mollası" və ya din xadiminin yas məclislərində başda oturub məclis aparması sovet dövründə, məscidlərin 90 faizdən çoxunun rəsmən bağlı olduğu dövrdə yaranıb. Din xadimləri heç olmasa yas mərasimlərində iştirak edib orada insanlara moizə etmək, dini xatırlatmaq üçün fürsət olaraq istifadə ediblər. Amma indi maşallah məscidlər var. Dini öyrənmək üçün kimsə yasdan istifadə etmir. Heç yasa gedən mollaların özləri də orada dini təbliğ etmirlər, daha çox ibrətamiz dini mövzulardan danışırlar".

> ***"Ailədə, qohumlar arasında Quran oxumağı bacaran ağsaqqal və ya cavan insanlar varsa, bu işi onlara tapşırın"***

*K.Rövşənoğlu vurğulayıb ki, savadlı din xadimləri yas mərasimlərində maraqlı söhbətlər edirlər. Amma bunu hamının etməsi mümkün deyil. Buna görə də nəticə etibarı ilə yas məclislərində arzuolunmaz mənzərə yaranır:* "İnsanlar yasa "ştatlı", "attestasiyadan keçmiş" molla gətirim, başda oturub məclis aparsın" anlayışından xilas olmalıdır. Ailədə, qohumlar arasında Quran oxumağı bacaran ağsaqqal və ya cavan insanlar varsa, bu işi onlara tapşırın. O cümlədən qadın molla anlayışı da sonradan, xüsusən də son 20 ildə geniş yayılan bir "sənətə" çevrilib. Əlbəttə, kiminsə "çörəyinə bais olmaq" fikrində deyiləm, amma dediyim kimi, anlayışlar dəqiq olmalıdır. Məclis aparan adamlara, qadın və ya kişi olsun, "molla" deyil, ən yaxşı halda "məclis aparan" demək olar".

**İsmayıl Qocayev**

# Nəzir qutuları hər yerdən yığışdırılacaq

## Bundan sonra bütün ianələr kart vasitəsi ilə həyata keçiriləcək



**Turan İrfan:** "Hər bir ibadət yeri qanunlara tabe olmalı və şəffaf, hesabatlı şəkildə fəaliyyət göstərməlidir"

**Emin Qasımov:** "Artıq bir çox ölkələrdə "nəzir vermək" anlayışına bənzər "Donate" və "Help" onlayn maddi dəstək xidmətləri var"

**Azərbaycanda bundan sonra dini qurumlar ianə edilmiş pul vəsaitlərini plastik kart və elektron ödəmə sistemləri vasitəsilə qəbul edə biləcəklər.**

Bununla bağlı məsələ Milli Məclisin son iclasında müzakirəyə çıxarılan "Dini etiqad azadlığı haqqında" qanuna dəyişiklikdə öz əksini tapıb.

Dəyişikliklə dini qurumlar könüllü ianələr üçün müraciət edə, habelə bu ianələri nağd və ya bank, poçt, plastik kart, elektron ödəmə sistemləri, yaxud internet vasitəsilə qəbul edə biləcəklər.

Müzakirələrdən sonra dəyişiklik səsverməyə qoyularaq birinci oxunuşda qəbul edilib.

**Qanun dəyişikliyi ilə bağlı "Şərq"ə açıqlama verən Milli Cəbhə Partiyasının sədr müavini, ilahiyyatçı Turan İrfan bildirib ki, bu qanun müvafiq sahədə şəffaflığı təmin edəcək:** "Nəzir qutularının yığışdırılması barədə hələ ki, bir qərar yoxdur. Sadəcə, nəzirin onlayn formada verilməsi haqda qərar var. Bu da müasirliklə bağlıdır. Artıq həm dünyada, həm də ölkəmizdə alış-veriş və digər məsələlər kart vasitəsi ilə həyata keçirilir. Bundan sonra hər hansı şəxs uzaq bir ölkədən, yaxud rayondan, məsələn, Bakıda yerləşən ibadət ocağına, yaxud da ziyarətgaha onlayn nəzir, ianə göndərə biləcək. Burada bir qəbahət yoxdur. Nəzir qutularının buna paralel olaraq məscidlərdə qalması da ola bilər. Çünki məscidlərdə kifayət qədər ehtiyaclar, çıxarlar var. Kommunal xərcləri ödəyə bilmədiyinə görə kifayət qədər işığı, qazı, suyu kəsilən məscidlərimiz var. Onlar ora toplanan nəzir pulu ilə ehtiyaclarını ödəyirlər. Müəyyən məbləğ toplanmadıqda isə məsciddə ibadətə uyğun şərait olmur. Məsələn, qışda suyu isitmək olmursa, insanlar soyuq su ilə dəstəmaz alıb xəstələnirlər.

Bunlarla yanaşı onu da deməliyəm ki, bəzi pirlərdə isə əksinə, daha çox pul toplanır və o pulu bir neçə şəxs mənimsəyir. Şəffaf olmayan şəkildə, heç yerə hesabat vermədən öz maddi maraqları üçün istifadə edirlər. Ona görə qanunun sayəsində bu məsələnin də kökündən tənzimlənməsi gözlənəndir".

*İlahiyyatçı həmçinin qeyd edib ki, Azərbaycanda yaşayan və fəaliyyət göstərən hər bir ruhani, imam, inanclı insan və hər bir ibadət yeri Azərbaycan qanunlarına tabe olmalı və şəffaf, hesabatlı şəkildə fəaliyyət göstərməlidir.*

"Azərbaycanda ibadət yerlərinə, yəni məscidlərə və ziyarətlərə təyinatın müvafiq icra orqanına verilməsini də alqışlayıram və bunu çox düzgün qərar hesab edirəm. İndiyə qədər bu işi Qafqaz Müsəlmanları İdarəsi həyata keçirirdi. Onlar da əsasən İranda, Qumda oxuyan şəxslərə üstünlük verirdi. O şəxslər də oxuyub təhsil aldıqları ölkənin siyasi xəttini təbliğ edir, o ölkənin özünə məxsus islam modelini ölkəmizdə təbliğ edirdilər. Xurafatçılıq da buna görə yayılırdı. Çünki xarici qüvvələr fanat insanları xurafat vasitəsilə daha asan təsir altına sala bilirlər. Bununla yanaşı ziyarətgahlarda da toplanan ianələr, nəzirlər, yardımlar qeyri-şəffaf şəkildə mənimsənilirdi.

İstər İran təmayüllü siyasiləşmiş yerli ruhanilərə, istər Səudiyyə Ərəbistanı təmayüllü radikallığa meyilli şəxslərə milli dəyərlərimizə və dövlət qanunlarımıza müvafiq fəaliyyət göstərmələri üçün bu qanun birbaşa təsir edəcək.

Ancaq yenə də diqqətli olmaq vacibdir ki, xarici təsirlərdən qaynaqlanan ünsürlər yenə də məscidlərə sızmasın.

Habelə pirlərə, ziyarətgahlara təyin edilən şəxslər də milli dövlətçilik ənənələrinə vaqif olan şəxslər olsun.

Çünki insan məscidə inancına görə gedir. Oranı müqəddəs hesab edir və inanır ki, orada danışılanların hamısı həqiqətdir. Odur ki, məscid imamlarını təyin edərkən də hər şeydən öncə xaricə bağlı olub-olmaması aydınlaşdırılmalıdır. Əgər zərrə qədər Azərbaycan Respublikasının siyasi xəttinə, ərazi bütövlüyünə, hər hansı maraqlarına qarşı gələn ölkədə təhsil alıb, təlim görübsə, əsla onu Allah evinə yaxın qoymaq olmaz.

Düşünürəm ki, Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinin sayəsində bütün bunlar öz müsbət həllini tapacaq. Daha Qumda yarı siyası, yarı dini təhsil alanlar yox, yerli dini məktəblərdə oxumuş, milli ruhlu, ənənəvi islamı qavramış şəxslər məscidlərə təyinat alacaqlar.

Çünki Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinin indiyəcən olan fəaliyyəti və kifayət qədər savadlı, dini dərindən bilən kadr potensialı onlarda var.

Həm də dövlət qurumu olduğuna görə səlahiyyəti daha böyükdür.

İnanıram ki, həm məscidlərə rəhbər təyinatı, həm də nəzir məsələsi sarıdan bu qərarın verilməsi din sahəsində keçirilən müsbət islahatların önəmli hissəsidir və bu, çox doğrudur".

**Nəzir ödəmələrinin onlayn şəkildə təşkili barədə danışan informasiya texnologiyaları üzrə mütəxəssis Emin Qasımovun sözlərinə görə isə nəzir ödəmə sistemləri onlayn alış-veriş sistemlərindən fərqlənməyəcək:**

"Ödəmə sistemləri ianələri müəyyən bir bankın hesabına mədaxil edəcək. Ödənişlər tam şəffaf formada reallaşacaq. Sui-istifadə və ya kənar hesablara köçürülmə hallarından söhbət gedə bilməz. Artıq bir çox ölkələrdə "nəzir vermək" anlayışına bənzər "Donate" və "Help" onlayn maddi dəstək xidmətləri var. Bunlara yanğınla mübarizə, müharibədən zərər görənlərə yardım və s. istiqamətləri də aiddir.

Koronavirus bəlasından qurtulmadığımızı və pandemiya şəraitində həyatımıza davam etdiyimizi unutmamalıyıq.

Onlayn ödənişlər vasitəsilə lüzumsuz təmaslardan, risklərdən qorunub, özümüzün və yaxınlarımızın xəstələnmək ehtimalını minimuma endirəcəyik.

İstənilən bank kartları (pensiya kartları daxil olmaqla) vasitəsilə hər hansı bir ödəmə terminalından ianələr etmək mümkün olacaq".

**Sənan İsmayıl**

# Qəbiristanlıqların bələdiyyələrə verilməsinə başlanılıb

## Əmlak Komitəsi bələdiyyələrin işinə problem yaradır



**Dünən Milli Məclisin yaz sessiyasının ilk plenar iclası keçirilib. Deputatların cari mövzularla bağlı çıxışlarından sonra gündəlikdəki 12 qanun layihəsinin müzakirələri başlanılıb. İclas zamanı maraqlı fikirlər səsləndirilib.**

Parlamentin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov qəbiristanlıqların bələdiyyələrə verilməsini təklif edib: ”Qəbiristanlıqlar bələdiyyələrə verilsin. Nazirlər Kabineti nümunəvi qəbiristanlıqların 3 aya bələdiyyələrə verilməsi barədə qərar qəbul etmişdi, bu günə qədər bu qərar icra olunmur. Bu qərarın icrası təmin olunmalıdır”.

**Məsələ ilə bağlı ”Şərq”ə danışan Bələdiyyələrin Fəaliyyətinin Təbliği İctimai Birliyinin sədri Vüqar Tofiqli**

***Vüqar Tofiqli: "Süründürməçilik, müəyyən sənədlərin tələb edilməsi var ki, bu məsələnin həllini uzadır"***

**proseslərə artıq start verildiyini bildirib:** ”Qəbiristanlıqlarla bağlı bütün prosedur qaydaları Nazirlər Kabinetinin qərarı ilə 2018-ci ildən bələdiyyələrə verilib. Sadəcə, onların sənədləşdirilməsi, bələdiyyənin mülkiyyətinə verilməsi prosesində müəyyən ləngimələr, axsamalar və neqativ hallar baş verib. Bunun da kökündə bələdiyyələrin fəaliyyətinə müəyyən mənada problem yaradan orqan var.

Bu orqan Əmlak Məsələləri üzrə Dövlət Xidmətidir. Qəbiristanlıqlarla bağlı olan məsələlərin tam yekunlaşdırılmamasının günahı və əsas səbəbi həmin orqandadır.

Burada prosedur məsələləri, süründürməçilik, müəyyən sənədlərin tələb edilməsi var ki, bu məsələnin həllini uzadır. Nəticədə də bələdiyyələrin bir çoxunda qəbiristanlıqların təhvil-təslim prosesində ləngimələr var. Amma ümumilikdə prosesə başlanılıb. Müəyyən rayonlarda, o cümlədən paytaxt Bakının bəzi ərazilərində proses başa çatıb. Bu istiqamətdə müəyyən addımlar atılıb. Nəzərinizə çatdırım ki, bir çox bələdiyyə var ki, müəyyən dəfn xidmətləri, mərasim xidmətlərini artıq həyata keçiriblər”.

**Çimnaz Şahlar**

# “O dünyaya inanıram"

## Mübariz Tağıyev: “Bilirəm ki, bir gün əcəl gəlib qapımı döyəcək”



**”Həyatdan bezməmişəm. O qədər görəcəyim işlər var, təsəvvür edə bilməzsiniz. Nəsə etməyə tələsirəm”.**

”Şərq”in məlumatına görə, bu sözləri Xalq artisti Mübariz Tağıyev deyib.

”Üzə-düz” verilişinin qonağı olan M.Tağıyev gələcəklə bağlı fikirlərini bölüşüb:

”Var olduğum müddətdə ailəmə, nəvələrimə kömək göstərmək istəyirəm. Yəqin sonu var. Sonu gələndə həm ailədə, həm də xalqda nəsə qoyub getməliyik. Əgər edə bilmirsənsə, onda həyatda heç bir şeysən. Yalandan yaşayırsan. O biri dünyaya inanıram. İnanmırıqsa, demək, daxildə sual altında olan məqamlar var. Bilirəm ki, bir gün əcəl gəlib qapımı döyəcək”.

**Aygün**

# Biabırçı videolar sosial bəla olaraq gündəm qazanır

## “Belə halların kütləviləşməsini təkcə məktəblə əlaqələndirmək ədalətli mövqe olmaz”



**Azərbaycanda direktor şagirdləri döyüb. Bu barədə görüntülər sosial şəbəkələrdə yayılıb. Bildirilib ki, Cəlilabad şəhər Akademik Zərifə Əliyeva adına 7 nömrəli tam orta məktəbin direktoru Səidə Şükürova sinifdə şagirdləri çubuqla döyüb.**

Qeyd edək ki, paytaxtda fəaliyyət göstərən 9 nömrəli tam orta məktəbin direktoru Zinyət Əhmədovanın da bir müddət əvvəl təhsil ocağında şagirdləri döyməsi barədə məlumat yayılmışdı.

**Yayılan görüntülərlə bağlı ”Şərq”ə danışan təhsil eksperti Nadir İsrafilov deyib ki, hazırkı vəziyyət məşhur türk filmi ”Hababam Sınıfı”na bənzəyir. O bildirib ki, ”Hababam Sınıfı”na baxanda, indi orda baş verənlərə şükür edirik:**

”Çünki bizim məktəblərdə davam etməkdə olan son olaylar, təlim və tərbiyənin bütün parametrləri üzrə o filmlərdə təsvir olunan hadisələri üstələyib. ”Hababam Sınıfı”nda yol verilən sərbəstlik elementləri tərbiyəsizlik və əxlaqsızlıq elementləri ilə əvəz olunub. Görünür, hələ ki, bizim sinfin qarşısına çıxa və kimlərinsə heç olmasa çəkinə biləcəyi ”Hababam Sınıfı”nın ”Mahmut Hoca” kimi bir personajımız yoxdur. Məktəblərimizdə isə müəllimlərin qeyri-pedaqoji, şagirdlərin isə qeyri-etik davranışlarına dair növbəti biabırçı, rəzil videoları gündən-günə tirajlanmaqda davam edir. Direktorun sinifdə şagirdləri çubuqla döyməsi, şagirdlərin spirtli enerji içkisi qəbul etmələri, daha sonra məktəbin idman zalında oynamağa başlamaları, müəllimlə davaya çıxan şagirdin partanı aşırdaraq sinfi tərk etməsindən sonra müəllimənin halının pisləşməsi, daha nələr, nələr... Hətta yeniləri bir yana, neçə illər bundan qabaq çəkilən görüntülər də təkrarən ”prokat”a buraxılmağa başlayıb”.

*Təhsil eksperti hesab edir ki, cəmiyyətimizdəki bu kimi hallar təkcə məktəb çərçivəsi ilə məhdudlaşmır:*

***“Bu "hərəkata" böyüklər kiçiklərdən xeyli əvvəl başlamışdı?!. Vəziyyət artıq məktəb çərçivəsi ilə məhdudlaşmır"***

”Bu kimi neqativ halların kütləviləşməsini təkcə məktəblə, müəllim-şagird münasibətləri ilə əlaqələndirmək o qədər də ədalətli mövqe olmazdı. Bu artıq sosial xarakterli bir hala çevrildiyindən məktəbdən də yan keçə bilməzdi. Ayrı-ayrı müğənnilərin, iş adamlarının, ölkə üzrə tanınmış şəxslərin ailə, məişət, hətta intim videolarını ki, sosial şəbəkələrdə məktəblilər yaymamışdı və bu ”hərəkata” böyüklər kiçiklərdən xeyli əvvəl başlamışdı?!. Vəziyyət artıq məktəb çərçivəsi ilə məhdudlaşmır”.

**N.İsrafilov müxtəlif qurumların bu sahədə gördüyü işlərdən söz açıb:** ”İstənilən halda bu kimi halların baş verməsi məktəbi məsuliyyətdən də azad etmir. Təqdirəlayiq haldır ki, təhsil müəssisələrində şagirdlərin xoşagəlməz davranışları Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin də nəzarətinə götürülüb. Komitə sədri açıqlamasında deyildiyi kimi bütün qurumlar cəmiyyətə töhfə verməlidir. Nazirlik rəsmiləri tərəfindən yayılan məlumatlara əsasən isə sağlam şagird-müəllim, şagird-məktəb, şagird-şagird, valideyn-müəllim, valideyn-məktəb münasibətlərini tənzimləyən hüquqi normativ sənədlərin və nümunəvi qaydaların yenidən işlənilməsi və təkmilləşdirilməsi prosesinə start verilib. Digər xəbərə görə, məktəblərdə yaşanan hadisələrin təkrarlanmasının qarşısının alınması məqsədilə şagirdlərin psixoloji pasportlarının hazırlanması işinə başlanılıb. Ölkə Başçısının Bakı Dövlət Universitetinin 100 illik yubileyi münasibətilə keçirilən mərasimdə ”Müəllimlər tələbələrə nəinki biliklər verməlidirlər, onları tərbiyə də etməlidirlər. Ümumiyyətlə, Azərbaycanda tərbiyə işi yeni müstəviyə qalxmalıdır, biz ideoloji işə yenidən baxmalıyıq, burada zəifliklər, boşluqlar var” kimi iradı, əslində vəziyyətdən təcili çıxış yolu tapmağımız üçün ciddi bir mesajdır”.

**Çimnaz Şahlar**

**Elan**

Dövlət Gömrük Komitəsi tərəfindən Qarayev Fəxri Bayraməli oğlunun adına verilmiş AA 0001752 seriya nömrəli1752 saylı vəsiqə itdiyi üçün etibarsız sayılır.

Xətai rayonu tərəfindən Hüseynov Firdovsi Əşrəf oğlunun adına verilmiş Yeni Azərbaycan Partiyasının üzvlük vəsiqəsi (№ 310625) itdiyi üçün etibarsız sayılır.

”Tovuz Biznes İnkişaf Mərkəzi” MMC bağlanmaq mərhələsindədir. Maraqlananlar əlaqə saxlasınlar. Elmar Bayramov 055 811-11-99

Bakı şəhəri, Sabunçu rayonu, Bakıxanov qəs. Nazim İsmayılov küçəsi 109 A ünvanında yerləşən, Hüseynova Zenfirə Şaban qızına məxsus fərdi yaşayış evinə dair 0104558 saylı çıxarış və texniki pasport itdiyi üçün etibarsız sayılır.

**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**

**KURSLAR**

**-MÜHASİBAT** (2 AY)

**-Mobil telefonların təmiri** (3 ay)

**-KOMPYUTER** (1-3 AY)

**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)

**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)

**-Dizayn** (3-6ay)

**-Masaj** (3 ay)

**-Biçmə - Tikiş** (3 ay)

**-Məktəb Psixologiyası** (12 ay)

**Tel: (012) 489-08-84**

**Mob: (070) 241-28-67**

**www.az-baku.com**

# Cəza sanksiyaları işin bir hissəsidir

## İnsanlar maarifləndirilməsə qaz zəhərlənmələrinin qarşısını almaq mümkün olmayacaq



**Dəm qazından zəhərlənmənin qarşısını almaq üçün yeni cərimələr müəyyən edilir. Qaz qurğuları və qaz xətlərinə, tüstü bacalarına, habelə havalandırma və havadəyişmə xətlərinə texniki xidmət qaydalarının pozulmasına görə cərimələr tətbiq ediləcək. Bu, Milli Məclisin ötən gün keçirilən iclasında müzakirəyə çıxarılan İnzibati Xətalar Məcəlləsinə təklif edilən dəyişiklikdə əksini tapıb.**

Dəyişikliyə görə, qeyd olunan pozuntuya görə fiziki şəxslər iki yüz manatdan dörd yüz manatadək, vəzifəli şəxslər min manatdan min beş yüz manatadək, hüquqi şəxslər iki min beş yüz manatdan üç min manatadək məbləğdə cərimə ediləcək. Dəyişikliklər müzakirələrdən sonra səsverməyə qoyularaq qəbul edilib.

**Təhlükəsizlik məsələləri üzrə ekspert Elmar Nurəliyev ”Şərq”ə açıqlamasında bildirib ki, dəm qazından zəhərlənmə hallarının qarşısını almaq üçün cərimə sanksiyaları işin bir hissəsidir:** ”Digər tərəfdən kompleks tədbirlər hazırlanmalıdır. Konsepsiyada ümumi qaz təchizatından təhlükəsiz istifadəyə dair bəndlər öz əksini tapmalıdır. Təkcə cərimələr deyil, dəm qazından zəhərlənmələr hansı halda baş verir kimi suallara cavab orada yer almalıdır. Bəzən insanlar standartlara cavab verməyən qaz sobalarından yararlanmağa çalışırlar, ona kənar müdaxilələr edilir, tüstü bacaları vaxtında təmizlənmir. Bu kimi məsələlər ümumi konsepsiyada göstərilməlidir. İstehlakçılar bilməlidir ki, qayda pozuntuları ilk növbədə onların öz həyat və sağlamlığı üçün təhlükəlidir. Təbii ki, qaydalara riayət edilmədikdə cərimə tətbiqi normaldır. Amma ona qədər də mütləq qaydada digər məsələlər də öz həllini tapmalıdır. Məsələn, istehlakçının evindəki qaz sobası standartlara cavab vermirsə, tüstü bacasını illərlə təmizləmirsə, cərimə olsa belə, yenə də dəm qazından zəhərlənmənin qarşısını almaq olmayacaq. Cərimə cəza metodudur. Amma bunlar paralel aparılmalıdır. Yeni konsepsiyada dəm qazına dair dedektorların qorunması, onlara aid meyarların müəyyənləşməsi arzuolunandır. Bundan başqa, mərkəzləşmiş istilik sisteminin geniş bir formada tətbiqinin reallaşdırılması məqsədəuyğundur. Payız-qış aylarında havaların soyuması ilə əlaqədar istiliyə tələbat artır. Mərkəzi istilik sistemi xidmətləri nə qədər geniş kütləyə çatarsa, təbii ki, zəhərlənmələrin də baş verməsi minimuma enər”.

**Sücayət Mehti**

# Tariflər narazılıq doğurur…

## Çoxmənzilli binaların sakinləri idarəetməni öz üzərlərinə götürə bilərlər

**Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev parlamentin son iclasında çoxmənzilli binaların saxlanması və xidmət tariflərinin dəqiqləşdirilməsinin vacibliyini vurğulayıb. Millət vəkili qeyd edib ki, bəzi binalarda xidmət haqqı 1 kvadratmetrə görə 30 qəpikdən 1 manata qədər, bəzən isə 1 manatdan yuxarı olur:**

”Bu tariflərin nəyin əsasında müəyyən edildiyi məlum deyil. Qanunvericilikdə bu məsələyə aydınlıq gətirilməlidir. Tariflərin müəyyən edilməsinin normaları təyin edilməli və xidmətin keyfiyyəti yoxlanılmalıdır”.

M.Quliyev həmçinin mənzil-istismar sahələrinin funksiyalarının genişləndirilməsini və onların bələdiyyələrin tərkibinə verilməsini də təklif edib.



**Deputatın təklifini ”Şərq”ə dəyərləndirən iqtisadçı-ekspert Natiq Cəfərli bildirib ki, sakinlər daxili idarəetmə ilə bağlı təşəbbüs göstərməlidirlər:**

”Sakinlərdən vəsaitlərin yığılmasını həyata keçirən ”JEK”lər qanunvericiliklə ləğv olunub. Lakin bu qurumlar yenisi ilə tam əvəzlənmədiyi üçün fəaliyyət göstərməyə davam edirlər.

Tariflər insanlar arasında narazılıq doğurursa, sakinlər bina idarəetməsini öz üzərlərinə götürə bilərlər. Sakinlər tariflərin müəyyələşdirilməsində, vəsaitin toplanıb şəffaf şəkildə xərclənməsində mühüm rola malikdirlər.

Bakıda 100-dən çox binanın sakinləri idarəetmə komitəsi yaradıb. Onlar iclaslar keçirərək qərarları özləri verirlər. Blokların təmir olunmasına, liftlərin yenilənməsinə, pulun ayrılmasına sakinlər nəzarət edir.

Qeyd edim ki, dövlətin tarif müəyyən etmə səlahiyyəti yoxdur. Bu tip tariflər Tarif Şurası tərəfindən tənzimlənmir”.

**Xanlar Əlibəy**

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, Nailə Cabarova, İlahə İbrahimova, Fazilə Məmmədova

Qəzet “Şərq”in kompyuter mərkəzində yığılır, səhifələnir və “Azərbaycan” nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, “Azərbaycan” nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: “Kapitalbank”ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 351



## Alim Qasımov nəvəsinin toyunda ağladı

**Xəbər verdiyimiz kimi, Xalq artisti Alim Qasımovun nəvəsi Fatimənin toyu olub.**

Axşam.az-ın məlumatına görə, gəlinaparma mərasimində Fatiməni çıraq başına xanəndə özü fırladıb.

Həmin an Alim Qasımov göz yaşlarını saxlaya bilməyib.

*Qeyd edək ki, Fatimə Xalq artisti Natiq Şirinovun oğlu Ümidlə ailə qurur. Fatimə Əməkdar artist Fərqanə Qasımovanın qızıdır.*

## Uçan qayıq...

Dubay sularında sərgilənəcək



**Dünyanın hidrogenlə işləyən təmiz enerjili ilk uçan qayığı ilk dəfə Birləşmiş Ərəb Əmirliklərində - Dubayda dənizə buraxılacaq.** "Şərq" "Milliyet.com"a istinadən bildirir ki, uçan qayıq dəniz səthinin 80 santimetr üzərində hərəkət edə bilir. Uçan qayığın 2023-cü ildə, Dubayda keçiriləcək 28-ci Beynəlxalq İqlim Zirvə toplantısında sərgilənəcəyi gözlənilir. Qayığın sahibi mərkəzi İsveçdə yerləşən "The Yet Zero Emission" şirkətidir. Şirkət qayığın Dubayda istehsal edilməsi və elə orada da ilk dəfə dənizə çıxarılmasıyla bağlı BƏƏ-dəki "Zenith Marine Services" şirkəti ilə müqavilə imzalayıb. Uçan qayığın sürəti saatda 75 kilometrdir. 8-12 sərnişin daşıya bilir. Qayıqda həmçinin yanacaq deposu, kondisioner də olacaq. Uçan qayıq sərnişinlərə dalğasız dəniz səyahəti vəd edir.

**Məlahət**

## 1 milyon dollarlıq sürpriz

Çimərliyi tullantılardan təmizləyərkən tapdı



**Tailandda maraqlı hadisə baş verib. Metbuat.az xəbər verir ki, çimərlikdə tullantıları təmizləyən gənc inanılmaz sürprizlə üzləşib. Məlumata görə, o boz ənbər tapıb. Boz ənbərin 27 kiloqram olduğu bildirilir. Onun dəyərinin 1 milyon dollardan çox olduğu deyilir.**

## İllik razılaşma

Fahriə və Burak İnstaqramdan 1 milyon 271 min manat qazanır



**Türkiyənin məşhur cütlüyü, aktyor Burak Özçivitlə aktrisa Fahriye Evcenin İnstaqramda etdikləri reklamlardan qazandıqları məbləğ bəlli olub.**

**Axşam.az Türkiyə mətbuatına istinadən xəbər verir ki, cütlük gündəlik yox, illik razılaşma ilə təklifləri qəbul edir. Onlar reklam qarşılığında illik 10 milyon lirə (təxminən 1 milyon 271 min manat) əldə edirlər.**

***Qeyd edək ki, aktrisanın İnstaqramda 12 milyon 500 min, aktyorun isə 20 milyon izləyicisi var.***

## Miniatür tövlə 1 milyona satıldı



**Qalmaqallı, məşhur qraffiti-rəssam Benksinin hazırladığı miniatür tövlə 1 milyon funt-sterlinqə satılıb. Axşam.az xəbər verir ki, "Anderson & Gowland" hərrac evi tərəfindən hərraca çıxarılan əl işi iki gün ərzində yeni alıcısını tapıb. Tövlənin üzərində "Ya böyük get, ya evə get" ("Go big or go home") sözləri qeyd olunub.**

## Turist filin ayaqları altında öldü

Milli parkın rəhbərliyi filə qarşı heç bir tədbir görməyib



**Uqandanın "Murchison Falls" Milli Parkında qəzəbli fil dəstədən ayrılan turisti ayaqları altında tapdalayıb. Oxu.az xəbər verir ki, bildirilir, Ayman Sayel Elşaxani adlı səyyah istirahət zamanı qrupdan ayrılıb. Fil onu görüb və təqib etməyə başlayıb. Elşaxani daha 3 turistin əyləşdiyi avtomobilə vaxtında çata bilməyərək heyvanın ayaqları altında ölüb.**

**Milli parkın rəhbərliyi filə qarşı heç bir tədbir görməyib, ancaq polisə bildirib ki, gələcəkdə belə halların baş verməməsi üçün turistin ölümünü araşdıracaqlar.**






# 31 min 17 çağırışa səs verib

## "Haydı" Mərkəzi işgəncə görən heyvanları xilas edir

**Türkiyənin Əmniyyət Baş Müdürlüyü və Jandarma Baş Müdürlüyü tərkibində 2020-ci ildə Ətraf Mühit, Təbiət və Heyvanları Qoruma Heyəti formalaşıb. Heyətin ətraf mühitə, təbiətə və heyvanlara qarşı cinayətlərlə daha effektiv mübarizəsi məqsədilə "Heyvanların durumunu izləmə" mobil rabitə şəbəkəsi - "Haydi" yaradılıb.**

"Milliyet.com.tr" xəbər saytında yer alan məlumatda bildirilir ki, mobil rabitə vasitəsiylə indiyədək 183 min 100 nəfərin müraciəti qəbul olunub, alınan 31 min 17 məlumat üzrə heyət fəaliyyətə keçərək vəziyyəti nəzarət altına alıb, işgəncə görən heyvanlar xilas edilib. Ankarada çalışan heyət isə "Haydı" mobil rabitəsi sayəsində 2 min 468 məlumat alıb və 66 halda mövcud duruma müdaxilə edilib. "Haydı" Heyəti 81 bölgədə fəaliyyət göstərir və ümumilikdə 2 min 500 əməkdaşdan ibarətdir. Heyətdə təmsil olunan əməkdaşlar ətraf mühitə, heyvanlara zərər vuranları yaxalamaqla kifayətlənmir, onların cərimələnməsinə nail olur, zərər görmüş heyvanların müalicəsini də təmin edir, onlara qayğı göstərir, qidalandırılar. "Haydı" mobil rabitənin icrasında məqsəd həm də insanların təbiətə, heyvanlara qarşı həssas davranmalarını təbliğ etməkdir. Tükiyədə hər bir vətəndaş bu sistemi telefonuna yükləməklə "Haydı" heyətinə yardımçı ola bilər.




**Məlahət**






# Hamamda dəhşət

## Polislər basqın zamanı qorxunc mənzərə ilə qarşılaşdı

**Avstraliyanın paytaxtı Sidneydə dəhşətli qətl törədilib. "Şərq" "Daily Mail"ə istinadən xəbər verir ki, 19 yaşlı qadın yeni tanış olduğu adam ərəfindən vəhşicəsinə qətlə yetirilib.**

Ailə üzvləri gənc qadının telefon zənglərinə uzun müddət cavab verməməsindən narahat olub. Və polisə müraciət ediblər. Daxil olmuş məlumat əsasında qadının yaşadığı ünvana gələn polis əməkdaşları qorxunc mənzərə ilə qarşılaşıblar. 19 yaşlı Aminah Hayatın cəsədinin qalıqları bazar günü Sidneyin qərbindəki Quzey Parrmattada, cütlüyün bərabər yaşadığı mənzilin hamam otağında tapılıb. Bu mənzilin həftəlik kirayə dəyəri 320 dollardır. Mənzilin 2 yataq otağı var. Polis gənc qadının cəsədinin qalıqlarını hamam vannasında - sulfat və nitrat turşusu içində ərimiş halda aşkarlayıb. Cütlük bu qorxunc qətl hadisəsindən bir neçə həftə öncə evləniblər. İstintaq qadının bir gündən artıq müddətdə hamam otağında qaldığını ehtimal edib. Gənc qadının evləndiyi şəxs - 20 yaşlı Zafar mənzildən çıxıb yük maşınına minərkən görüntülənib. Polis Zafarın axtarışlarına başlayıb. Bazar ertəsi günü isə Zafar polisə təslim olub. Qonşuları, həmçinin rəfiqəsi Aminah Hayatın çox gözəl və yaxşı qonşu insan olduğunu deyirlər. Qapı qonşusu Ali Safari isə cütlüyü sosial mediada paylaşdıqları fotoqraflardan tanıdığını deyib və Aminah üçün "çox xoşbəxt görünürdü" söyləyib. Zafar isə aprel aında hakim qarşısına çıxacaq.







**Məlahət**

## Bakıda qeyri-adi hadisə

Koronaya yoluxan hamilələrdən biri üçəm, digəri dördəm dünyaya gətirib





**COVID-19-a yoluxmuş və vəziyyətləri ağırlaşdığı üçün Kliniki Tibbi Mərkəzə yerləşdirilmiş iki hamilə qadından biri üçəm, biri dördəm dünyaya gətirib.**

Kliniki Tibbi Mərkəzin mətbuat xidmətindən verilən məlumata görə, yanvarın 26-da Mərkəzə gətirilən 44 yaşlı hamilə qadın vəziyyəti daha da ağırlaşdığı üçün reanimasiyaya yerləşdirilib:

"Daha sonra həkimlər 30 həftə 6 günlük olan hamiləliyin sonlandırılması qərarını alıb və 4 gün sonra, yanvarın 31-də qeysəriyyə əməliyyatı ilə üçəmlər dünyaya gəlib. Üçəmlərin hər biri qızdır. Çəkiləri 1 200, 1 180, 755 qram olub. Hazırda onların üçü də küvezdədir. İkisinin vəziyyəti stabil, birinin vəziyyəti isə ağır olaraq qalır."

31 həftəlik 22 yaşlı hamilə qadın isə fevral ayının 1-də Mərkəzə yerləşdirilib. Onun da vəziyyəti orta-ağır olduğu üçün təcili olaraq əməliyyata alınıb və dördəmləri dünyaya gəlib. Dördəmlərdən üçü qız, biri oğlandır. Onların çəkiləri 1 340, 1 440, 1 250 və 1 300 qram olub. Hazırda ikisinin vəziyyəti stabil, ikisinin vəziyyəti isə ağır olaraq qalır" - məlumatda bildirilib.

## Görüntülər ortalığı qarışdırıb

Koreya prezidenti arıqlayıb, səhhətində problemlər var



**Şimali Koreya lideri Kim Yong barədə müəmmalar gündəmdədir. Koreyanın dövlət televiziyasında yayımlanan bəlgəsəldəki görüntülər ortalığı qarışdırıb. Görüntülərdə Kim Jongun çox arıqladığı və yoxuşu enməkdə çətinlik çəkdiyi müşahidə edilir.**

Bu da Koreya prezidentinin səhhətində problemlərin olması barədə şayiələrin yayılmasına səbəb olub. Koreya dövlət təbliğatı isə bunu "Liderimiz yoxsul insanların dərdini çəkməkdən "quruyub", şəklində izah edir. Deyilənə görə Kim Yong yay alarında 44 kiloqram arıqlayıb. Dekabr ayında isə tamamilə zəifləmiş halda görüntülənib. Yanvar ayında keçirilmiş bir toplantıda Kim Yong yaşından daha böyük görünüb. Halbuki onun 40 yaşında olduğu deyilir. Kimin görüntüləri Mərkəzi televiziya tərəfindən yayımlanan "2021: A Great Victorious Year" adlı bir proqramda ortaya çıxıb. Enli köynək geyinmiş Kimin şalvarı da az qala əynindən tökülür. O, pilləkəni yavaş-yavaş, ehtiyatla enir. Görüntülərə əlavə edilən səsdə isə "O bizə atalıq qayğısı göstərir. Vücudu tamamən qurudu, böyük acı çəkir. İnsanların xəyallarını gerçəkləşdirə bilmək üçün narahatdır və bizə ana şəfqəti göstərir" deyilir. Əslində bununla Şimali Koreya əhalinin aclıqla üz-üzə qaldığını təsdiqləyir. Ötən il başqa bir televiziya kanalı vətəndaşlardan birinin Kim haqqında ağlaya-ağlaya "bir dəri bir sümük qalıb", söylədiyini yayımlamışdı. Halbuki Şimali Koreyada Kimin səhhəti və şəxsi həyatı barədə danışmaq, hətta fikir bildirmək belə qadağandır.

**Məlahət**